www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 sentyabr 2014-cü il Çərşənbə № 220 (5929) Qiymətı 40 qəpik

**Xəbər**

## Vəhhabilər İslam peyğəmbərinin qəbrini dağıdırlar

yazısı səh.2-də

**Gündəm**

### Hökumət şadlıq evləri ilə bağlı hərəkətə keçdi



Restoranlar toy sahibləri ilə müqavilə imzalamağa məcbur ediləcək; **Vahid Əhmədov:** "Birinci növbədə vergi sistemini tənzimləmək lazımdır"

yazısı səh.13-də

### Hakimiyyətin "sıfır cinayət - ağır cəza" modelinin sirri

yazısı səh.4-də

### İqtisadçı Vüqar Bayramovdan Ermənistanla bağlı ilginc açıqlamalar

yazısı səh.10-da

### Avropa Şurasının Bakıdakı iclasında xristian-müsəlman qarşıdurması...

yazısı səh.3-də

### Bakıda qız qaçırmaq üstə iki qardaş həbs edilib

yazısı səh.13-də

### Bahalaşmanın qarşısını necə almaq olar?

yazısı səh.15-də

### Rəsmi Bakıdan Sərkisyanın Qarabağa gəlişinə sərt təpki

yazısı səh.11-də

### Məhəmmədi sakinini şortik geydiyinə və iti hürdüyünə görə bıçaqladılar

yazısı səh.14-də

### Devrilmiş liderlərin param-parça olmuş ailələri...

yazısı səh.12-də

### Dustaqların hansı hüquqları var?

yazısı səh.13-də

### Məhkəmə hakimi qardaşı arvadını döydü

yazısı səh.14-də

### Sanksiyalar rus banklarını çökdürdü

yazısı səh.15-də

### Azərbaycan sərhədində "Ebola" gərginliyi...

yazısı səh.14-də

## Türkiyə-Azərbaycan münasibətlərini kim gərdi - təhlil

# ƏRDOĞAN - ƏLİYEV GÖRÜŞÜ ÖNCƏSİ BÖYÜK TƏXRİBAT

İki qardaş ölkə arasında qısamüddətli viza şoku yaşandı; Azərbaycan-Türkiyə münasibətlərinə çat salmağa çalışdılar; Ankaradakı səfirliyimiz və XİN bunu "siyasi təxribat" adlandırdı; xəbərin qaynağı AKP iqtidarına yaxın "A haber" kanalı imiş; Bakı hər şeyi təkzib etdi; lakin ortada başqa ciddi məsələlər də var...




yazısı səh.8-də

## "Şeyx işçilərini gizli kamera ilə izləyib" - iddia

Allahşükür Paşazadəyə qarşı şok ittiham; iddiaya görə çəkilişlərdə axundların pul-para söhbətləri və digər biabırçı videoyazılar var...

yazısı səh.12-də



*Zəfər Quliyev:*

### "Qərb İlham Əliyevə təzyiq göstərməyəcək"

yazısı səh.5-də



### Çavuşoğlu - iqtidar dostu, müxalifət küskünü

yazısı səh.6-da



*Elxan Şahinoğlu:*

### "Putin Qərbə mesaj göndərir ki, bu regionun yiyəsi mənəm"

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 220 (5929) 3 sentyabr 2014



## Prezident Gənclərin Qlobal Forumuna 2 milyon ayırdı

**Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncama əsasən 2014-cü ilin oktyabr-noyabr aylarında Bakı şəhərində "Gənclər siyasəti üzrə Birinci Qlobal Forum"un və Kompüter Oyunları üzrə VI Dünya Çempionatının keçirilməsini təmin etmək məqsədilə 2014-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gənclər və İdman Nazirliyinə 2,0 (iki) milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

## Ərdoğanın Bakı səfəri ilə bağlı rəsmi açıqlama

**Türkiyə mətbuatının yazdığına görə, Şimali Kipr səfərindən sonra ilk xarici rəsmi səfərini gerçəkləşdirmiş olacaq Ərdoğan sentyabrın 2-si və 3-də Azərbaycanda olacaq. Mətbuatın məlumatına görə, Ərdoğan Bakıda həmkarı İlham Əliyevlə iki ölkə arasında əməkdaşlığın müxtəlif spektrləri ilə yanaşı hər iki ölkənin maraq dairəsinə daxil olan regional və beynəlxalq məsələləri müzakirə edəcək.**

Türkiyə prezidentinin rəsmi internet səhifəsində yer alan məlumatda "Prezidentimizin ziyarətləri gücünü dərin tarixi və insani bağlardan alan, hər iki ölkə xalqlarının ortaq maraqlarının hər sahədə təmin olunmasının örnək nümunəsi olan Azərbaycan-Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi üçün önəmli bir fürsət olacaqdır" - deyə qeyd edilir.

## Vergi borcu olanların əmlakı siyahıya alınıb

**Vergilər Nazirliyinin 11 saylı Ərazi Vergilər Departamentinin və 13 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları tərəfindən bir sıra borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınıb.**

Vergilər Nazirliyinin analitik-informasiya şöbəsindən "APA-Economics"ə verilən məlumata görə, 13 saylı ƏVİ-nin əhatə dairəsinə daxil olan, Zaqatala şəhəri, V.İsmayılov küçəsində yerləşən "Zaqatala-Bazar-2" ATSC-nin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən, onun 7 040 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilib. Bu barədə vergi ödəyicisinə bildiriş göndərilsə də, borc məbləği qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməyib. Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, yaranmış vergi borcunun ödənilməsini təmin etmək məqsədilə obyektdəki əmlakın siyahıya alınması haqqında qərar çıxarılıb, 8 300 manat dəyərində mağaza və bərbərxana binası müvafiq qaydada siyahıya alınıb.

Həmin gün Zaqatala rayonunun Göyəm kəndində yerləşən "Şahin" MMC-yə məxsus daş karxanasında da əmlak siyahıya alınıb. Müəssisənin 4 624 manat vergi borcunun təmin edilməsi məqsədilə obyektdəki 5 500 manatlıq daş sındıran avadanlıq və elektron idarəetmə qurğusu siyahıya alınıb.

11 saylı ƏVD-nin əhatə dairəsinə daxil olan Mingəçevir şəhəri, N.Nərimanov küçəsi 14/A ünvanında yerləşən, fiziki şəxs Abdüləzimova Cəmilə Elman qızına məxsus "Kosmos" və Yevlax rayonu, Xaldan qəsəbəsində yerləşən, fiziki şəxs Məmmədov Rövşən Mabud oğluna məxsus "Ərəş" şadlıq saraylarında əmlakın siyahıya alınması tədbirləri keçirilib. C. Abdüləzimovanın 2 717 manat, R. Məmmədovun isə 1 470 manat məbləğində vergi borclarının təmin edilməsi məqsədilə obyektlərdəki müvafiq olaraq 3 000 və 1 800 manat dəyərində məişət avadanlıqları və digər texniki avadanlıqlar müəyyən edilmiş qaydada siyahıya alınıb.

Departamentin əməkdaşları tərəfindən Bərdə şəhəri, A.Əhmədov küçəsində yerləşən, "Bərdə VİP Medical" stomatoloji mərkəzdə də əmlakın siyahıya alınması tədbirləri keçirilib, vergi ödəyicisinin 1 186 manat vergi borcu müqabilində onun 1700 manat məbləğində texniki ləvazimatlar müvafiq qaydada siyahıya alınıb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# İslam peyğəmbərinin qəbrini dağıdırlar? - dünyanı silkələyəcək şok xəbər

Vəhhabilər Allah elçisini anonim qəbirdə yenidən dəfn edəcəklər; İngiltərə mediası bildirir ki, bu addım şiələr tərəfindən xüsusi qəzəblə qarşılanacaq



**"İndependent" qəzeti yazır ki, Səudiyyə Ərəbistanı İslam peyğəmbərinin qəbrini dağıdacaq. Məhəmməd (s.ə.s.) Peyğəmbərin nəşindən qalanlarsa anonim qəbirdə yenidən dəfn ediləcək.**

İran agentliyi bildirir ki, belə bir addım atılsa, İslam dünyasında şok yaşanacaq.

Qeyd edək ki, söhbət Mədinədə yerləşən Peyğəmbər məscidi və ya Məscid ən-Nəbəvi-dən gedir. Həmin məscid İslam aləmində Məkkədə yerləşən Məscidül-Həramdan sonra ikinci önəmli ibadət evi sayılır. Ərəbşünaslar bildirirlər ki, "Nəbəvi" sözü ərəbcədən "peyğəmbərə aid" anlamına gəlir. Peyğəmbər məscidində eyni anda 650 min müsəlman ibadət edə bilir. Məscid 400.000 kv.m ümumi sahəyə malikdir. İslam xəlifələri olmuş Əbu Bəkir və Ömərin də qəbirləri oradadır.

""İndependent" vurğulayır ki, yaşıl qübbəli məsciddə təmir işləri ilə bağlı belə yerdəyişmənin edilməsinə bir çoxları, xüsusən şiələr etiraz edirlər.

Bu arada isə İranın "Farsnews" agentliyi bu məsələni ""İndependent"ə istinadən yenidən gündəmə gətirib. Bu həssas məsələdə Səudiyyə Ərəbistanının təbii ki, təkbaşına qərar çıxarması doğru deyil. "İndependent" bildirir ki, belə bir addımın atılması İslam dünyasında məzhəb savaşına yeni impuls verə bilər.

"İndependent" yazır ki, Səudiyyənin vəhhabi iqtidarı hesab edir ki, peyğəmbər qəbrinin ziyarət edilməsi bütpərəstlik əlamətidir və bunu aradan qaldırmaq lazımdır.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

## Rusiyaya qarşı daha bir ağrılı sanksiya hazırlanır

**Avropa Birliyinin (AB) Rusiyaya qarşı hazırda aktiv şəkildə müzakirə edilən yeni sanksiyalar paketi idman sferasını da əhatə edə bilər. Musavat.com-un Rusiya informasiya qaynaqlarına istinadən verdiyi xəbərə görə, bir sıra Avropa ölkələri Rusiyanın bəzi beynəlxalq idman federasiyalarında, o cümlədən UEFA və FİFA-da üzvlüyünün dayandırılmasını təklif ediblər.**

Belə bir sanksiya qüvvəyə minərsə, Rusiyanın futbol klubları Avrokubok yarışlarında iştirakdan, ölkənin özü isə 2018-ci ildə Dünya Çempionatına ev sahibliyi eləmək hüququndan məhrum olacaq. Bu barədə AB-nin Avropa məsələləri üzrə dövlət müşaviri Tomaş Prouza açıqlama verib.

## Bakıda orta məktəbin zirzəmisində döyüş sursatları tapılıb

**Bakıda məktəbin zirzəmisində döyüş sursatları aşkar edilib. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, "112" qaynar telefon xəttinə daxil olmuş məlumata əsasən, Bakı şəhəri, Pirallahı rayonunda orta məktəbin binasının zirzəmisində döyüş sursatı aşkarlanıb.**

Dərhal nazirliyin müvafiq qurumlarının mütəxəssisləri və xilasediciləri lazımi tədbirlərin görülməsi üçün hadisə yerinə cəlb edilib. Nazirliyin mütəxəssisləri aşkarlanmış sursata baxış keçirib. Müəyyən olunub ki, bunlar istifadəyə yararsız olan (təlim üçün istifadə edilən) sursatlardır. Aşkar edilmiş hərbi sursatlar aidiyyəti üzrə təhvil verilib. Xilasedicilər hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birlikdə əraziyə əlavə baxış keçirib, digər növ şübhəli əşya aşkar etməyiblər.

## Şura QHT-lərin bank problemlərini həll etməyə çalışır


Azay Quliyev

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası QHT-lərin hazırda bank sektoru ilə yaşadığı problemlər üzərində çalışır. Bunu "Media forum" saytına şuranın sədri, deputat Azay Quliyev deyib. Azay Quliyev bildirib ki, QHT-lərin qarşılaşdığı problemlərin həlli ilə bağlı bir neçə istiqamətdə iş gedir: "Müəyyən prosedur qaydalar, texniki mərhələlər var ki, onlara aydınlıq gətirilməlidir. Bəzi məqamlar yenidən işlənməlidir. Hər bir halda mövcud durum QHT-lər üçün bir mərhələdir, məncə, bu dövrü səbirlə keçmək lazımdır. Problemlərin həlli yəqin ki, çox uzun çəkməz".**

Son aylar QHT-lərin Ədliyyə Nazirliyinə təqdim etdiyi qrant müqavilələrinin qeydiyyatı düyünə düşüb. Müqavilənin qeydiyyata alınması haqqında bildirişin verilməməsi bank əməliyyatlarının aparılmasını mümkünsüz edir. Hazırda 20-dən çox QHT-nin fəaliyyəti bu səbəbdən iflic olub.

Qrant müqavilələrinin qeydiyyata alınması üçün hazırlanan yeni qaydalara gəlincə, Azay Quliyev deyib ki, yeni qaydalar üzərində də iş gedir: "Hələ ki bunun təfərrüatı barədə açıqlama vermək istəmirik. Çünki təkliflər planı üzərində bir neçə müvafiq qurumla birgə işləyirik".

İyulun 24-də prezident İlham Əliyev qrant müqavilələrinə dair yeni fərman imzalayıb. Fərman "Qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydalarının təsdiq edilməsi barədə" 12 fevral 2004-cü il tarixli prezident fərmanının ləğvini nəzərdə tutur.

Qrant müqavilələrinin qeydiyyata alınması qaydaları 2014-cü il noyabrın 1-dən ləğv edilir. Nazirlər Kabineti bu müddətdə qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması qaydalarını müəyyən edib prezidentə məlumat verməlidir.

## RATİ-nin daha bir əməkdaşını ölkədən çıxmağa qoymadılar


Günay İsmayılova

**Reportyorların Azadlıq və Təhlükəsizliyi İnstitutunun (RATİ) hüquqşünası Günay İsmayılova ölkədən buraxılmayıb. Bu barədə AzadlıqRadiosuna məlumat verən Günay İsmayılova deyib ki, sentyabrın 2-də Gürcüstana getmək üçün Bakı hava limanına yollanıb: "ATƏT-in iki günlük seminarına qatılmalı idim. Özü də şahid kimi dindirildiyim istintaqa bununla bağlı xəbər vermişdim. Onlar da demişdilər ki, problem yoxdur, get, qayıt, amma aeroportda sərhəd xidmətində məni buraxmadılar".**

Günay İsmayılovanın sözlərinə görə, ölkədən çıxmasına qadağanı Baş Prokurorluq qoyub: "Bu, qanunsuz göstərişdir. Ona görə də prokurorluğu məhkəməyə verəcəm".

Bundan əvvəl RATİ-nin əməkdaşı Əbülfət Namazovun da ölkədən çıxmasına icazə verilməyib.

Bu ilin avqustunda hüquq-mühafizə orqanları RATİ-nin ofisinin qapılarına möhür vurublar. İndilik institut işini dayandırıb. Bundan sonra qurumun rəhbəri Emin və qardaşı Mehman Hüseynovlarla əlaqə kəsilib, onların harada olduğu məlum deyil.

RATİ-nin əməkdaşları isə istintaqa şahid qismində cəlb olunublar.


Yəhya Taşdələn

## Rəsulzadənin silahdaşı başqanlığa namizədini açıqladı

**Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin silahdaşı olmuş Yəhya Taşdələn Müsavat Partiyası başqanlığına seçkilərə münasibətini açıqlayıb.**

Publika.az-a açıqlamasında Y.Taşdələn başqanlığa namizədlər arasında Arif Hacılının şanslarını yüksək qiymətləndirdiyini bildirib.

"Mən bu insanı 20 ildən artıqdır ki, tanıyıram. Lakin ümumi anlamda bu proseslərə qarışmıram. Mən tərəfsiz bir elm adamı və yazaram. Sadəcə olaraq, inanıram ki, Müsavat Partiyası Rəsulzadə yolunu davam etdirir və bundan sonra da belə olacaq. İnşallah, yeni başqanın kim olmasından asılı olmayaraq, xalqa layiq olacaqdır".

Qeyd edək ki, M.Ə.Rəsulzadə Türkiyədə fəaliyyət göstərərkən gənc olan Y.Taşdələn onun rəhbərlik etdiyi kültür mərkəzinin üzvlərindən olub.



## İŞİD Rusiyanı bombalayacaq

Terrorçular "Çeçenistanı və Qafqazı azad edəcəyik", deyirlər

**"İslam Dövləti" bəyan edib ki, onlar Rusiyaya və Rusiyanın maraq dairəsində olan obyektlərə qarşı hücumlar təşkil edəcəklər. İraq və Şam İslam Dövlətinin (İŞİD) belə bir bəyanat verməsinin səbəbi odur ki, Rusiya hələ də Suriya prezidenti Bəşər Əsədi müdafiə edir. Bu barədə "MIGnews.com" saytı xəbər yayıb.**

"İslam Dövləti"nə bağlı şəxslərin sosial şəbəkələrdə paylaşdığı videoçarxlarda İŞİD tərəfindən işğal olunmuş Suriya hərbi hava limanındakı qırıcılar nümayiş etdirilir. Deyilir ki, bu qırıcılar Əsədə Putin tərəfindən göndərilib. Ancaq biz bu qırıcılarla Çeçenistanı və Qafqazı xilas edəcəyik.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

## Avropa Şurasının Bakıdakı iclasında xristian-müsəlman qarşıdurması...

**Bakıda Avropa Şurasının "Mədəniyyətlərarası dialoq: mədəniyyətlə dinin qarşılıqlı əlaqəsi" mövzusunda iclası keçirilir.**

Sözügedən konfransın məqsədi mədəniyyətlərarası və dinlərarası əməkdaşlıq sahəsində təcrübə mübadiləsi aparmaq, bu əməkdaşlığı genişləndirməyə təkan və töhfə vermək, həmçinin bütün Avropa məkanında arzuedilən anlaşma mühitinin yaradılmasıdır.

Lakin məqsədi anlaşmaya nail olmaq olan tədbirdə bəzi məsələlərdə anlaşma əldə etmək mümkün olmayıb. Belə ki, "Mədəniyyətlərarası dialoq: mədəniyyətlə dinin qarşılıqlı əlaqəsi" adlı konfransın yekun qətnaməsinin qəbulu zamanı iclas iştirakçıları arasında fikir ayrılığı yaranıb.

Virtualaz.org saytının tədbirdə iştirak edən müxbirinin verdiyi xəbərə görə, konfrans iştirakçıları Suriya və İraqda müsəlmanların radikal qruplar tərəfindən qətlə yetirilməsini pisləyən bəndin yekun sənədə daxil edilməsinə razılıq verməyiblər. Onlar yalnız xristianların məhv edilməsini pisləyən bəndlə kifayətlənməyə çalışıblar.

Bu isə Azərbaycanın Avropa Şurası yanındakı daimi nümayəndəsi, səfir Emin Eyyubovun etirazına səbəb olub. Müsəlmanların qətlə yetirilməsi barədəki bəndi də yekun qətnaməyə salmağı E.Eyyubov təklif etmişdi.

"Axı biz görürük ki, İraq və Suriyada hər gün nə qədər müsəlman - həm sünnilər, həm də şiələr radikal qruplar tərəfindən qətlə yetirilir. Biz bunları niyə görməzliyə vurub yalnız təkcə xristianların qətlindən danışmalıyıq? Əlbəttə, dinindən asılı olmayaraq istənilən insanın öldürülməsi faciədir. Ona görə də biz yalnız bir dinə mənsub olan insanlara qarşı cinayətlərdən danışmamalıyıq. Əgər burada insan haqlarından danışırıqsa, onda bütün insanlara və insaniyyətə olan cinayətlərdən söz açmalıyıq" - deyə səfir E.Eyyubov bildirib.

Azərbaycan nümayəndəsinin bu bəyanatı sənəd müəlliflərini çaşqınlığa saldı. Onlar qətnamənin yeni mətnini hazırlamaq üçün 10 dəqiqə fasilə verilərək vaxt ayrılmasını xahiş etdilər. Lakin bu fasilədən sonra da sənədin mətni ətrafında anlaşma əldə etmək mümkün olmadı. Bəzi dini qrupların nümayəndələri müsəlmanların qətlə yetirilməsinin pislənilməsinə dair bəndin yekun sənədə daxil edilməsinə razılıq vermədilər.

Beləliklə, yekun sənəd qəbul edilmədi. Konfrans iştirakçıları, sadəcə, bu istiqamətdə işləri davam etdirməyin vacibliyi məsələsində razılığa gələ bildilər.





## "Khazar Islands" beynəlxalq mətbuatda

**Süni arxipelaqda inşa olunan və 78 adadan ibarət "Khazar Islands" meqa-layihəsində ötən aylarda bir sıra sosial obyektlərin açılışı oldu. Məhz bu tədbirlər dünya ictimaiyyətinin bu layihəyə marağını daha da artırmaqla, həm buraya gələn turistlərin, həm də beynəlxalq mətbuat nümayəndələrinin sayını artırdı.**

Təsadüfi deyil ki, həm qonşu ölkələrin televiziya kanalları, həmçinin digər beynəlxalq mətbu orqanlar layihənin detalları ilə yaxından tanış olur, bu layihənin reallaşmasının dünya miqyasında çox önəmli bir hadisə olduğunu öz reportajlarında xüsusilə qeyd edirlər.

Yaponiyanın "Tokyo TV" kanalının nümayəndələrinin ardınca, Hacı İbrahim Nehrəmli qardaş Türkiyənin "Star", "Bloomberg", "Dünya" və "Kripto" agentliyinin nümayəndə heyətini qəbul edib. Görüşdə layihə haqqında geniş danışan şirkət prezidenti buranın gələcək perspektivlərindən də qonaqlara ətraflı məlumat verib. Bundan başqa, qardaş ölkənin mətbu orqanları ilə reklam və marketinq sahəsində müəyyən qarşılıqlı razılıqlar əldə olunmuşdur.




❑ **Avesta Konserninin mətbuat xidməti**

## NATO zirvəsinə Azərbaycandan kim gedəcək?

**Sentyabrın 4-5-də Uelsdə (Böyük Britaniya) keçiriləcək NATO sammitinin proqramı açıqlanıb. Sammitdə ABŞ prezidenti Barak Obama, Almaniya kansleri Angela Merkel, Fransa prezidenti Fransua Olland və daha 60 ölkənin liderlərinin, nazirlərinin iştirakı gözlənilir. Sammiti Böyük Britaniyanın baş naziri Devid Kameron açacaq və Əfqanıstana həsr edilmiş iclasla davam edəcək.**



Gün.az qurumun saytına istinadən xəbər verir ki, tədbir çərçivəsində müttəfiq ölkələrin dövlət və hökumət rəhbərləri ISAF iştirakçıları da daxil olmaqla, 27 tərəfdaş dövlət, o cümlədən Azərbaycan, Ermənistan, Gürcüstan, Bosniya və Herseqovina, Monteneqro və digər dövlətlərin rəsmiləri ilə görüşəcəklər.

Həmçinin prezident Pyotr Poroşenkonun iştirakı ilə NATO-Ukrayna komissiyasının iclası olacaq. NATO müdafiə və xarici işlər nazirlərinin də paralel iclası nəzərdə tutulub. NATO müdafiə nazirlərinin 24 ölkədən olan tərəfdaş dövlətlərin təmsilçiləri ilə görüşdə Azərbaycan da iştirak edəcək. Sentyabrın 5-də isə NATO müdafiə nazirləri Avropa İttifaqının ali nümayəndsəi Ketrin Eşton, ATƏT-in fəaliyyətdə olan sədri Didye Burkhalter, Avropa Şurasının baş katibi Torbyorn Yaqlandla məsləhətləşmələr aparacaqlar. Bəzi müşahidəçilər hesab edir ki, bu tədbirdə Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı mühüm müzakirələr də aparılacaq.

"Yeni Müsavat"ın əməkdaşı Azərbaycanın bu mühüm tədbirdə hansı səviyyədə iştirakını araşdırmaq istəyib və sammitə kimin qatılacağını öyrənmək üçün Xarici İşlər, həmçinin Müdafiə nazirliklərinə müraciət edib. Lakin hər iki qurumdan bildirilib ki, hələlik bu barədə rəsmi məlumat yoxdur və məlumat olan kimi ictimaiyyətə açıqlanacaq.

Xatırladaq ki, Türkiyə prezidenti R.T.Ərdoğan da Azərbaycana səfərini başa vurandan sonra NATO-nun tədbirinə qatılacaq.

❑ **Cavid TURAN**

## İsa Qəmbər niyə gedir, yaxud gedirmi?



**Zabil MÜQABİLOĞLU**
zabil525@yahoo.com

**Dünya və Hindistan tarixinin, Hindistan azadlıq, müqavimət hərəkatının əfsanəsi Mahatma Qandinin "Dünya tarixi" adlı kitabı var. Kitabı oxumaqla bəşər tarixinin böyük bir dövrü haqda tam bilgi əldə etmək mümkündür. Dünyada çoxları Mahatma Qandinin müqavimət hərəkatı ilə yanaşı bu kitabını da onun şah əsəri hesab edir. Amma Mahatma Qandinin şah əsəri təkcə onun Hindistanda başlatdığı və uğurla sonuclanan mülkü itaətsizlik aksiyası deyil. Onun şah əsəri həm də sonralar Hindistanın baş naziri olan və tarixdə bir neçə qadın siyasətçidən biri olaraq qalan qızı İndira Qandidir.**

Mahatma Qandi və xanımı eyni vaxtda həbs olunaraq ayrı-ayrı həbsxanalarda saxlanılırdılar. O zamanlarda Hindistanda ibtidai təhsil belə ödənişli idi və qızını məktəbdə oxuda bilməyən Mahatma Qandi həbsxanadan İndiraya yazdığı məktublar vasitəsilə ona dərs keçir. Bu təkcə İndira Qandiyə keçilən dərs deyildi, əslində bütün Hindistana və dünyaya keçilən bir həbsxana dərsiydi. Hansı ki, o dərs sonradan Mahatma Qandinin ölkəsinin taleyini dəyişdi; İndira Qandini bu ölkənin baş naziri etdi.

Bunu xatırlatmağımda səbəb var. Bu günlərdə həbsxanada olan Leyla Yunusun həbsxanada olan əri Arif Yunusa məktubunu oxudum. Bu məktub və haqsız yerə həbs olunan digər məhbusların dəyanəti, həbsxanadan verdikləri bəyanatlar Mahatma Qandinin bu həyat yolunu xatırladır. Həyata keçirilən həbslər, repressiyalar, haqsız yerə zindanlara atılan insanların mübarizəsi müasir dövrün Azərbaycan məhbuslarının həbsxana dərsləridir. Həm də hakimiyyətin öz aləmində cəmiyyətə verdiyi dərsdir.

Mahatma Qandinin ən çox sevdiyi şüarlardan biri bu idi: "Birincisi: Sənə fikir vermirlər, sonra sənə əl çalırlar, sonra səninlə savaşırlar, axırda isə sən qalib gəlirsən". Azərbaycanda da belə olacaq. İndi ölkədəki siyasi vəziyyətə fikir verməyən cəmiyyət, bir gün ayağa qalxıb aparılan bu mübarizəni alqışlayacaq, savaşacaq və demokratiya qalib gələcək. Yəni fərqi yoxdu, bunu kim edəcək, əsası odur ki, demokratiya qalib gələcək. Bu həbslər, repressiyyalar ölkə siyasi gündəminin bu gün əsas mövzularından biridir.

Gündəmdə olan digər mövzu isə bu həbslərə, repressiyalara, təzyiqlərə məruz qalan, ölkədəki vəziyyəti dəyişməyə çalışan bir siyasi qüvvənin- Müsavat Partiyasının qurultayıdır. Əsas müzakirə mövzusu isə İsa Qəmbərin başqanlıqdan gedəcəyini bəyan etməsi və Müsavata yeni başqanın seçilməsi məsələsidir. Bununla bağlı bir çox fikirlər var. Daha çox bu məqam üzərində dayanılır ki, İsa Qəmbərin başqanlıqdan getməsi Müsavatı zəiflədəcək, İsa Qəmbərin siyasi karyerasına ciddi şəkildə mənfi təsir göstərəcək.

Şəxsən mən belə düşünmürəm. 21 ildir bu hakimiyyətin qarşısında dayanan, prinsiplərindən dönməyən partiyanın gələcəyinə pessimist yanaşmaq doğru deyil. Ən əsası da Azərbaycan siyasətinin ən parlaq, ən dəyərli şəxslərindən olan İsa Qəmbər uzaqbaşı başqanlıqdan gedir, Müsavatdan getmir. Müsavat Partiyası Məhəmməd Əmin Rəsulzadənin adı ilə bağlı olduğu kimi, müasir tariximizdə də İsa Qəmbərin adı ilə bağlıdır. Məncə İsa Qəmbər elə rəsmən başqan olsa da, Müsavatın başqanıdır, müsavatçıların lideridir, olmasa da. Bu İsa Qəmbərin missiyasıdır.

O ki qaldı ondan sonra partiyanın zəifləyəcəyi, parçalanacağı haqda fikirlərə, böyük ehtimalla Müsavat bu mərhələni də şərəflə, ortaya böyük örnək qoymaqla adlayacaq. Müsavatın yeni başqanının kim olmasına gəlincə, bütün müsavatçıların, iddiaçıların buna haqqı çatır. Bir müsavatçı olaraq isə mənim seçimim dəyərli, fədakar insan olan Arif Hacılıdır. Məncə, İsa Qəmbərdən sonra bu postu tutmağa Arif Hacılının daha çox haqqı çatır. Bu haqqı ona tanısaq Müsavatın ziyanına olmaz.

İnanaq və ümid edək ki, Müsavat sözün əsl mənasında bu tarixi seçimdən uğurla çıxacaq.

Və bir çoxlarına dərs verə biləcək...



# Harınlara toy tutulsa, toyları sadə olar

Xalid KAZIMLI

**Həyatımıza aid bütün sferalarda olduğu kimi, yas və şadlıq mərasimlərinin keçirilməsi sahəsində də ciddi problemlər var.**
**Ən azı 6-7 ildir ki, mətbuatda bu barədə söhbətlər gedir. Ziyalılar dönə-dönə vurğulayırlar ki, həm hüzr məclislərində, həm də şadlıq mərasimlərində israfçılıq həddini aşıb.**

Gerçəkdən də xüsusilə toylarda təmtəraq-təntənə nümayiş etdirmə və nemətlər, təamlar təklifi əndazəsindən çoxdan çıxıb və bu bir yarış, bəhs predmetinə çevrilib. Əsasən imkanı çox olan adamlar yarışırlar: biri ötəkindən daha bahalı restoran kirayələyir, süfrəyə daha çox soyuq və isti yeməklər düzdürür, o biri gəlin maşını karvanının eyni və ən bahalı maşınlardan ibarət olmasının qayğısına qalır, başqa biri ölkənin və dünyanın ən bahalı müğənnilərini fantastik qonorar müqabilində övladının toyuna gətizdirir, başqası təkcə atəşfəşanlığa yüz min manatdan artıq vəsait xərcləyir və sair və ilaxır.

Əlbəttə, haram yollarla, qeyri-leqal vasitələrlə qazanılmış milyonları tüstü-dumana çevirib göyə sovurmaq, yaxud bir saatlıq səhnə şousunun müqabilində "dünya ulduzları"nın keyslərinə yükləmək asandır. Bunu həmin pulları əzab-əziyyətlə qazanan milyarderlər etməz, necə ki etmirlər. Onlar heç də xəsis deyillər, əksinə, leqal milyarderlər ondan da artıq pulu xeyriyyə fondlarına köçürür və bilirlər ki, bəşər əhlinə nəsə bir faydaları dəydi. Belə adamlar quru şöhrət üçün *("filankəsin oğlunun toyunda Şakira (Castin Biber, Rihanna) oxudu", "bir milyonluq atəşfəşanlıq təşkil etmişdilər", "gəlinin maşınını 25 "Galendevagen" müşayiət edirdi" və s.)* o qədər pul-para xərcləməzlər.

Ən yaramazı odur ki, quduz pulları payız xəzəlinə çevirmək imkanı olmayanlar da bəzən milyonçularla ayaq uzatmaq istəyərək, "ömürdə bir dəfə olan şeydir" deyə oğullarının, qızlarının toyunu ən bahalı restoranlarda təşkil edir, özlərini də, qonaqlarını da maddi sıxıntıya salırlar.

Heç kəsə sirr deyil ki, bu gün ən ucuz restoranın menyusunun qiyməti ortabab ailənin bir həftəlik azuqəsinin xərcinə identikdir və bu qiymət arta-arta gedir. Artıq şadlıq evi sahibi olmaq ən gəlirli biznes strukturuna malik olmaq deməkdir. Ona görə də bu sahə getdikcə çiçəklənir. Demək olar ki, hər gün Bakıda yeni və təmtəraqlı *(təbii ki, ən bahalı)* şadlıq sarayı istifadəyə verilir. On istehsal müəssisəsindənsə bir şadlıq evi işlətmək daha mənfəətlidir.

İndi xəbərlər var ki, hakimiyyət xalq arasında çoxdan səslənən təkliflərə müsbət reaksiya vermək, bu sahədəki problemi inzibati resurslarla həll etmək fikrindədir.

Ancaq iqtidar komandası bunu necə edəcək - hələlik bilinmir. Heç də ona görə yox ki, inzibati resurslardan istifadə olunan yerlərdə qanun-qayda pozuntularının olması, zor tətbiqi qaçılmazdır və bu etiraz doğuracaq. Əsasən ona görə ki, o cür toylar edənlər məhz özləridir.

Təbii ki, bu problem həll olunmalı, bəhsləşmə, harınlıq marafonu durdurulmalıdır, amma inzibati resurslar hesabına yox. Nümunə göstərməklə.

Bəllidir ki, övladına təmtəraqlı toy mərasimi quraraq milyonlar dağıdan adamların yüzdə doxsanı bu hakimiyyətdəki ali mənsəb yiyələridir. Qoy onlar bir az sadə olsunlar, yerdə qalan insanlara nümunə göstərsinlər. On beş - iyirmi bu sayaq müsbət örnəkdən sonra toy edərkən əndazəsini aşan təmtəraq və təntənələrdə bir səngimə baş verəcək, həddini keçənlər ictimai qınağa *("Filan nazirdən artıq kişi deyilsən ki... o oğluna (qızına) sadə toy etdi")* məruz qalacaqlar.

Əslində bu problem ölkədə dövr eləyən qeyri-qanuni pulların kumilyasiyası ilə bağlıdır. Bu pulların həcmi bizim və beynəlxalq maliyyə institutlarının təsəvvür edəcəyindən qat-qat çoxdur. Üstəlik, onların qazanılması yollarına, dövriyyəsinə, eləcə də sərfiyyatına nəzarət yoxdur. Nəzarət yoxdursa, cəza da olmayacaq.

Sovet dönəmində bəzən xərclənən pullardan (qızıl-brilyant, ev, maşın tədarük edilməsindən) yola çıxaraq sosialist əmlakını dağıdan və ya rüşvət alanları ifşa edirdilər. İndi elə problem yoxdur. Kim haradan nə qədər oğurlayır, necə oğurlayır - şəffafdır. Oğurluq şəffaf olsa da, cəzalandırılan yoxdur. Ona görə də plutokratiya öz sərvətini bu sayaq açıq-aşkar nümayiş etdirir.

Bu problemin həlli harınların toylarının sadələşdirməkdə deyil, harınlara toy tutmaqdadır.

# Hakimiyyətin "sıfır cinayət - ağır cəza" modelinin sirri

**Son illər Azərbaycanda siyasi fəallara qarşı kütləvi həbslər prosesi həyata keçirilir. Aprel ayından başlayaraq bu hal daha intensiv şəkil almağa başladı. Vətəndaş cəmiyyətinin nümayəndələri, QHT rəhbərləri həbs edildi.**
**Son 4 ayda həbs edilən tanınmış şəxslərin istintaq işinə nəzər yetirdiyimiz zaman açıq şəkildə görünür ki, onlara qarşı irəli sürülən ittihamların heç biri hələ də sübuta yetirilməyib.**

Bununla belə, sərt maddələrlə ittiham olunurlar. Ağır həbs cəzaları nəzərdə tutulur.

İllər keçdikcə cəzalar da sərtləşdirilir. Əvvəllər siyasi fəallara qarşı irəli sürülən ittiham maddələrində yuxarı hədd ən pis halda 5 il nəzərdə tutulurdusa, indi bunun tam əksidir. İllər keçdikcə, həbs cəzaları artır. Teatra bənzəyən məhkəmələrimizdə oxunan hökmlə insanların həyatı məhv edilir.



**Fazil Mustafa:** "Dövləti xarici resurslara söykənən müxalifətçilik daha ciddi narahat edir"



**Mehman Əliyev:** "Cəmiyyət nə qədər zəif olursa, basqı o qədər güclü olur"

**Deputat Fazil Mustafa hesab edir ki, bütün bunların səbəbi dövlətin mahiyyətindən irəli gəlir:** "Bunun səbəbini başqa istiqamətlərdə axtarmaq lazımdır. Doğrudur, illər keçdikcə sərtləşmə prosesi gedir. 15 il öncəki siyasət rahat, qaydalar çərçivəsində gedirdi. Bütün bu qaydalar ortadan qalxıb. Bunun əsas səbəbi dövlətin mahiyyəti ilə əlaqədardır. Azərbaycanda baş verən proseslər iqtidarı sanki başqa siyasət aparmağa vadar edir. Hakimiyyət əsasən sabitliyi önə çəkir. Əslində bu, vacib məsələdir. Çünki sabitliyin pozulmasının nəticələrini zamanında görmüşük. Dövlətin müstəqilliyinin əminliyini yaşamamaq narahatçılığı var. Rusiyanın addımı, ABŞ-ın Ermənistanla bağlı tərəddüdlü mövqeyi açıq şəkildə görünür. Ona görə də daxildə atılan hər addım ciddi narahatçılıq doğurmağa başlayıb. Məncə, bu qorxu altında yaşamaq yanlışdır. Qalıcı bir sistem formalaşdırmaq lazımdır. Suriya, Liviya, Misir və başqa ölkələrdə hazırda hansı insanı dindirsən, əvvəlki hakimiyyəti tərifləyəcək. Amma əslində elə deyil. Çünki bu dövlətlərdə qalıcı sistem formalaşmayıb. Azərbaycan hakimiyyəti və müxalifət olaraq, bu sistem üzərində düşünməliyik. Dövlət hansısa təhlükə ilə üzləşəndə cəmiyyət özünü itirməməlidir. Təəssüf ki, bunlar yoxdur. Azadlığın sıxıldığı ölkədə hakimiyyət ciddi problemlər yaşaya bilər".

**Fazil Mustafa həbslərin davam edəcəyini də istisna etmir:** "Son aylarda həyata keçirilən həbslər daxili amillərlə bağlı deyil. Diqqətlə baxsaq görərik ki, hakimiyyət daxildəki müxalifətçiliyə narahatlıqla yanaşmır. Daxili resurslara söykənən müxalifətçilikdən çəkinmir. Amma xarici resurslara söykənən müxalifətçilik daha ciddi narahatçılıq doğurur. Bu baxımdan daha fərqli bir xətt izləmək yerində olardı. Hakimiyyət güclüdürsə, daxildəki qüvvələrin oyunlara tabe olması, ölkənin inkişafında öz töhfələrini verməyə çalışması vacibdir. Hakimiyyət istəsə belə, müxalifətin boşluğunu doldura bilmir. Müxalifətin zəifliyi hakimiyyətin özü üçün böyük təhlükədir. Cəmiyyət hər şeyə hazır olmalıdır. Düşünməli deyil ki, hər şeyi hakimiyyət edəcək. Putinin Qazaxıstan haqqındakı fikirləri sübut etdi ki, o, hər an Azərbaycan haqqında da bu fikirləri söyləyə bilər. Cəmiyyət buna hazır olmalıdır. Bunlar olmadıqca, ciddi təhlükələr gözlənilir".

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev insanların həyatına bu qədər biganə yanaşılmasının yolverilməz hal olduğunu söylədi:** "Təbii ki, insan həyatını bu qədər məhv etmək olmaz. Təəssüflər olsun ki, son illərdə bu hallar günü-gündən güclənir. Siyasi fəallar, vətəndaş cəmiyyətinin nümayəndələri və media işçiləri həbs edilir. Hakimiyyət özü açıq şəkildə göstərir ki, bu həbslərin arxasında siyasi motivlər durur. Formal olaraq xuliqanlıq, narkotik göstərilə bilər. Amma siyasi olduğunu beynəlxalq təşkilatlar, səfirliklərin bəyanatlarında görürük. Hər zaman həbs-qətimkan tədbiri seçilir. Halbuki həmin insanların azadlıqda olması cəmiyyət üçün təhlükə deyil. Bunların hamısı bu tipli cəmiyyətlərdə normal bir haldır. Başqa heç nə gözləmək olmaz. Həqiqətən həbs edilən insanlara qarşı irəli sürülən ittihamların heç biri istintaqda sübuta yetirilməyib. Qanuna ziddir. Bunlar nizamlanmış hədəflər çərçivəsində həyata keçirilən əməliyyatlardır".

**"Turan" rəhbəri qanunların sərtləşdirilməsinə də münasibət bildirdi:** "Əvvəllər daha güclü cəmiyyət, partiyalar, media, həmrəylik var idi. Sonralar cəmiyyət zəiflədi. Nəticədə cəzalar da sərtləşdirildi. Təbii ki, yaranan vəziyyəti hakimiyyətin gedişatında axtarmaq lazımdır. Bunlar cəmiyyətin zəifləməsi nəticəsində baş verir. Cəmiyyət nə qədər zəif olursa, basqı o qədər güclü olur. Biz bunun şahidiyik. Hesab edirəm ki, həbslər çox uzun çəkməyəcək. Sentyabrda həbslər bitəcək. Amma təbii ki, hər zaman həbs ola bilər. Lakin bu formada olacağı inandırıcı görünmür. Güclü siyasi qurumların fəallarının həbs edilməsi, onların rəhbərlərinin zərərsizləşdirilməsi prosesi çərçivəsində gedir. Demək olar ki, ortada heç nə qalmayıb. Amma fakt ondan ibarətdir ki, hazırda cəmiyyət basqı altındadır".

# İqtidar Müsavatda kimin başqan olmasını istəyir?



## Zahid Oruc: "Hamı bilir ki, İsa Qəmbərə rəsmi supersədrlik, liderlik verilməsə də, partiyaya təsir üçün gizli iplər onun əlində olacaq..."

**Hakimiyyətə yaxın deputat Zahid Oruc "İqtidar Müsavata hazırkı iddiaçılardan kimin başqan seçilməsini istəyir" sualına maraqlı cavab verib. O deyib ki, hakimiyyətin Müsavatın siyasi gələcəyi ilə bağlı düşüncələri haqda danışmaq ona çox çətindir. Ona görə də hakimiyyəti, onun yürütdüyü siyasəti müdafiə edən şəxs kimi yalnız öz subyektiv düşüncələrini ifadə edir.**

Z.Orucun fikrincə, Müsavatın bundan sonra kimin əlinə keçməsi məsələsi ilə bağlı müəyyən məhdud dairələrdə təhlillər ola bilər: "Müsavatın mənşəcə ermənistanlıların əlinə keçməsi, yaxud da Naxçıvandan olan hansısa bir insanların gəlib partiyanın əsas simalarına çevrilməsi bununla da həmin partiyanın siyasi gələcəyinin, indiyə qədər yürütdüyü xəttin tamamilə dəyişəcəyi, hakimiyyət-müxalifət münasibətlərinin konfiqurasiyasına necə təsir edəcəyi yönündə mümkündür ki, hansısa məhdud dairələrin hansısa təhlilləri olsun. Amma açığı, belə demək mümkündürsə, Müsavat Partiyasına İsa Qəmbərdən sonrakı bir vəziyyətdə baxış da yoxdur, yəni belə bir fikir bərkiməyib. Hamı bilir ki, İsa Qəmbərə rəsmi şəkildə supersədrlik, liderlik verilməsə də, partiyaya təsir üçün gizli iplər onun əlində olacaq. Belə bir yanaşma çoxlarında var".

**Deputat Müsavatın bu yanaşmaya alternativ mövqeyi gücləndirə bilmədiyi üçün yeni başqanın kim olmasının formal olacağını söylədi:** "Müsavatda başqan postuna məlum dörd iddiaçıdan hansı gəlsə, onlar şərti, nominal başqan olacaqlar. Real başqanlıq İsa Qəmbərin üzərində davam edəcək. Onu da deyim ki, bu vəziyyət partiya üçün çox mənfi haldır".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 220 (5929) 3 sentyabr 2014



# “Özümüzü aldatmayaq - Qərb İlham Əliyevə təzyiq göstərməyəcək”

## Zəfər Quliyev: “Dünyanın geosiyasi sistemi tamamilə darmadağın olmaq üzrədir”

**Politoloq Zəfər Quliyevin “Yeni Müsavat”a verdiyi müsahibəni təqdim edirik.**

***- Bir müddət öncə dövlət başçısı İlham Əliyev, ardınca Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev içərisində çox ciddi mesajlar olan bəyanatlar verib. Sizcə, iqtidarın yaxın gələcəklə bağlı planları nə olacaq?***

- Azərbaycanda ziddiyyətli proseslər gedir. Aşkar olan odur ki, iqtidar qapalı cəmiyyət yaratmaq istəyir. Siyasi ritorikanı müşahidə edərkən yalnız belə bir təəssürat yaranır. Hətta bəzi məqamlarda Sovetlər Birliyində olduğu kimi qapanmanın real görüntüsü də var. Viza rejimlərinin sərtləşdirilməsi, xaricə gediş-gəlişin ən müxtəlif vasitələrlə məhdudlaşdırılması bundan xəbər verir. Qapalı cəmiyyət yaratmaq cəhdlərinin daha bir görüntüsü qanunların ildən-ilə sərtləşdirilməsidir. Media, vətəndaş cəmiyyəti institutları ilə bağlı qanunlara dəyişikliklər birmənalı olaraq azadlıqların məhdudlaşdırılmasına yönəlib. Sanki avtoritar rejim üçün hansısa hüquqi baza yaradılır. Bundan başqa, ölkədə düşmən axtarışı davam edir. Hər bir sahəyə total nəzarəti gücləndirmək meylləri var. Azərbaycandakı durum getdikcə SSRİ dövrünü yada salır. Bu da dövlətin, hökumətin modernləşmə kursuna uyğun gəlmir. Ancaq bu o demək deyil ki, modernləşmə prosesi tam dayanıb.

***- Sizcə, bu modernləşmə daha çox vizual xarakter daşımırmı?***

- Elədir. Ancaq hər halda, infrastrukturun modernləşdirilməsinə iqtidar son illər böyük pullar xərcləyir. Tam sistemli modernləşmə olmasa da nəqliyyat, enerji, təbii qaz, su, turizm infrastrukturunun yaradılması sahəsində işlər görülüb. Bu addımları müsbət qiymətləndirmək lazımdır. İqtidar sanki bir sıra sahələrdə dünya ölkələri ilə rəqabətə girərək özünü təsdiqləməyə çalışır. Müasir texnologiyaların ölkəyə gətirilməsinə çalışılır, mədəniyyət, idman sahəsində nəhəng beynəlxalq layihələrə qoşulmaq təşəbbüsləri göstərilir. Ancaq çağdaş dünyanın əsas tələbi qloballaşmadır. Qloballaşma üçün də ölkənin daxili durumunda daha açıq iqlim yaradılmalıdır. Bizdə isə əks proses gedir. Sanki Azərbaycan özünü dünyadan təcrid edərək yeni model yaratmağa çalışır. Nüfuzlu məmurlar bu haqda açıq danışır. İki həftə öncə Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənov bildirdi ki, biz nə Avropa Birliyinə, nə də Avrasiya İttifaqına can atırıq. Azərbaycan öz geopolitik mövqeyinə görə tam neytral durumda ola bilməz. Azərbaycan son illər nə Qərb modelini, nə Rusiyanın təklif etdiyi Sovetlər Birliyinin bərpası modelini, nə də İran modelini özünə uyğun saymır. Qərbin demokratik dəyərlərinin tətbiqi iqtidarı çökdürə bilər, Rusiyanın təklifi Azərbaycanı yenidən köləliyə qaytarar. Bu ziddiyyətli addımlar Azərbaycanın axtarışda olduğunu göstərir. Düşünürəm ki, iqtidarın təsəvvüründə belə bu model hələ tam şəkillənməyib.

***- Bu yeni modelin hansı ölkədəki idarəetmə modelinə daha yaxın olacağını düşünürsünüz?***

- Məsələn, Birləşmiş Ərəb Əmirlikləri. BƏƏ də neftin hesabına qurulub, modernləşib. Azərbaycan dövlət başçısının bu ölkənin liderləri ilə yaxşı münasibətləri var. Nə qədər modern olsa da BƏƏ-də qapalı, avtokratik rejim hökm sürür. Yəni Azərbaycanla ortaq məqamlar çoxdur. Sinqapur, Malayziya tipli respublikaların modeli də Azərbaycan iqtidarı üçün cəlbedici görünə bilər. Bu respublikalarda da avtoritar üsullarla çox yüksək inkişafa nail olublar. Bu ölkələrdə sərt qanunla, sərt cəza mexanizmləri tətbiq olunur, açıq cəmiyyət anlayışı belə yoxdur, media üzərində senzura var, dövlət sirri hər şeydən üstündür, məhkəmələr baş nazirə, dövlət başçılarına tabedir. Yəni Azərbaycan getdikcə üzünü Batıdan, Rusiyadan Uzaq Doğuya yönəldir.

***- Bu seçim Qərbin, Rusiyanın razılığı olmadan mümkündürmü?***

- Əlbəttə, Rusiya Azərbaycanın onun təsir dairəsindən çıxması ilə sakitcə barışmayacaq. Qərbin də Bakının bu istəyi ilə nə qədər hesablaşacağı böyük sual altındadır. İndi Rusiyanın da, Qərbin də başı Ukraynaya qarışıb. Dünyanın geosiyasi sistemi tamamilə darmadağın olmaq üzrədir. Ukraynada gedən proseslər regional, lokal yox, qlobal konfliktdir. Ukraynada Qərblə Rusiya arasında açıq qarşıdurma davam edir. Qərb indi öz təhlükəsizliyi ilə bağlı məsələlərə daha çox diqqət ayırır. NATO Şərqi Avropa ölkələrində daha 5 baza açmağa hazırlaşır. Qərb anlayır ki, Rusiya ilə bu qarşıdurma uzun müddət davam edəcək. Ona görə də ilk növbədə öz təhlükəsizliyinə görə Azərbaycan kimi ölkələrdə daha çox iqtidarlarla işbirliyi qurmağa meyllidir. Bunun da nəticəsində insan haqları məsələsi arxa plana keçməkdədir. Bu gün Azərbaycan kimi ölkələrdə demokratiya problemləri Qərb üçün çox xırda məsələlərdir. Özümüzü aldatmağa ehtiyac yoxdur - Qərb hər zaman praqmatik maraqlardan çıxış edir. Azərbaycan-Qərb münasibətlərində ağırlıq enerji siyasətinin üzərindədir. Ona görə də Qərb İlham Əliyevi qərbyönlü yola qaytarmaq üçün ona heç bir basqı göstərməyəcək. Azərbaycan iqtidarı bəzən demokratiyanı imitasiya etdiyi kimi beynəlxalq qurumlar da demokratiyaya sadiqliklərini bəzən imitasiya edirlər.

***- Türkiyə prezidenti Ərdoğan Bakıda səfərdədir. Bəzi ekspertlər deyir ki, Türkiyənin xarici siyasəti yaxın gələcəkdə dini diplomatiya üzərinə şəkillənəcək. Sizin Türkiyənin gələcəyi il bağlı proqnozlarınız necədir?***

- Türkiyə-Azərbaycan münasibətlərində dövlət başçılarının ilk səfərləri ilə bağlı ənənənin qalması çox müsbət haldır. Məncə, indiki situasiyada İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın daha yaxından əməkdaşlıq etmələri üçün real imkanlar çoxalıb. Reallıq ondan ibarətdir ki, hər iki ölkədə gedən proseslər birbaşa liderlərin iradəsinə tabedir. Hər iki dövlət başçısının geniş səlahiyyətləri var. Bir zamanlar Türkiyənin müəyyən məsələlərlə bağlı mövqeyi parlamentin qərarlarından asılı idi, ancaq indi konstitusyon dəyişiklik olmasa belə, bütün məsələlər Ərdoğanın qərarlarından asılıdır. Bu həm də o deməkdir ki, Ərdoğanla Əliyev bir sıra problemləri ikilikdə müzakirə edib qərar verə bilərlər. Hər iki lider uzun illərdir ölkələrini idarə edir, bundan sonra da hakimiyyətdə qalacaqları şübhə doğurmur. Yəni prezidentlər təkcə bugünkü məsələləri deyil, siyasi perspektivləri də müzakirə etmək imkanındadırlar.



**“BƏƏ, Sinqapur, Malayziya tipli respublikaların modeli Azərbaycan iqtidarı üçün cəlbedici görünə bilər”**

***- Siz bu iki liderin münasibətlərində uzlaşma olduğunu düşünürsüzmü? Bəzi analitiklər bildirir ki, rəsmi Bakı ilə Ankaranın münasibətləri o qədər də isti deyil.***

- Şəxsi münasibətlər məsələsinə o qədər toxunmaq istəmirəm. Çünki informasiyam o qədər də geniş deyil. Siyasi aspektdən baxanda isə bu iki dövlətin bir-birindən asılı olduğu görünür. Türkiyə regionda liderlik ambisiyasında olan nəhəng bir ölkədir. Ancaq bu nəhəng ölkə bir sıra məsələlərdə Azərbaycanın siyasi kursundan, ölkədə gedən proseslərdən müəyyən qədər asılıdır. Zaman-zaman təklənən Azərbaycan hakimiyyəti də Türkiyədən asılıdır. Azərbaycanın Türkiyə kimi daimi müttəfiqə çox ciddi ehtiyacı var. Türkiyədə nə qədər avtoritar rejim olduğunu desək də Türkiyə prezidentinin arxasında xalq dayanır. Ona görə də hər iki lider işbirliyini gücləndirməkdə maraqlıdır. Proseslər Türkiyə-Azərbaycan münasibətlərinin daha da möhkəmlənməsinə aparır. Bayaq dediyim kimi, Azərbaycan yeni idarəetmə modeli axtarışındadır. Eyni proses Türkiyədə gedir. Türkiyə artıq Avropa Birliyi ilə yaxınlaşmaq siyasətini ikinci plana keçirib, ölkə Qərbdən gələn basqıları qəbul etmək istəmir, Vaşinqton-Ankara münasibətlərində tez-tez ziddiyyətlər yaranır. Türkiyə NATO-nun üzvü olsa da Ankaranın mövqeyi digər NATO ölkələrinin mövqeyindən fərqli ola bilir. Bu yeni model axtarışında Türkiyə ilə Azərbaycan yeni işbirliyi qura bilər. Bu yolla iki ölkə həm Qərbin, həm də Rusiyanın basqılarından özlərini sığortalaya bilər.

**“Türkiyə-Azərbaycan-Gürcüstan gömrük birliyinin gündəmə gəlməsi son dərəcə uğurlu addım olardı”**

***- Zəfər bəy, bugünlərdə Türkiyənin strateji uzmanlarından olan Kemal Üçüncü Türkiyə-Azərbaycan-Gürcüstan gömrük birliyi modelini təklif edib. Sizcə, bu ideyanın gerçəkləşməsi üçün zəmin varmı?***

- Mümkün variantdır. Buna qədər Türkiyə-Azərbaycan-Gürcüstan münasibətləri əsasən enerji faktoru üzərində qurulurdu. Artıq bu münasibətlər yeni mərhələyə qədəm qoyur, yeni nəqliyyat infrastrukturları yaranır, münasibətlər daha da dərinləşir. Bu, çox müsbət tendensiyadır. Hər üç ölkənin rəhbərliyi də davamlı olaraq görüşürlər, nazirlər səviyyəsində davamlı münasibətlər var. Bu üçlüyün işbirliyi perspektivləri artıq enerji sahəsindəki ilişkilərdən hərbi təhlükəsizlik, geniş iqtisadi əməkdaşlıq səviyyəsinə qədər yüksəlib. Üç ölkə gömrük birliyi yaratsa bu, bölgəyə böyük mənfəət verə bilər. Azərbaycan da, Gürcüstan da Rusiyadan gələn təhdidlərə hər an hazır olmalıdır. Alternativ variantlar hazırlamaq və həyata keçirmək Kremlin basqısına müqavimət imkanlarını artırır. Unutmayaq ki, siyasət böyük alverdir. Bu alverdə alternativ nə qədər çox olsa, dövlətlərin öz mənfəətlərinə uyğun seçim imkanları da çoxalır. Ərdoğan-Əliyev görüşməsində Türkiyə-Azərbaycan-Gürcüstan gömrük birliyinin gündəmə gəlməsi son dərəcə uğurlu addım olardı.

❑ **Aygün MURADXANLI**



# Bizi birləşdirən "dəyər"

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Biz niyə bu gündəyik? Suala yəqin ki, hərənin (söhbət azərbaycanlılardan gedir) öz cavabı var. Dindirsən, bir qisim müxalifəti günahkar sayacaq, digər qisim yalnız çörək dərdi çəkən toplumu, üçüncü bir kəsim Qərbi və ya Rusiyanı, dördüncüsü isə həlli uzanan Qarabağ məsələsini cümlə dərdlərimizin baiskarı hesab etdiyini dilə gətirəcək. Hətta neft-qazımızı suçlu çıxaranlar tapılacaq. Minimum tən yarısı da bir ünvana barmaq tuşlayacaq - ölkədəki avtoritar idarəçilik.**

Gerçək isə yəqin ki, haradasa "qızıl orta"dan keçir və əlbəttə ki, Azərbaycanın öz hüdudları daxilindədir. Yəni günahkar ilk növbədə iqtidarlı, müxalifətli, cəmiyyətli - özümüzük. Yaxanı kənara çəkməyə heç kəsin haqqı çatmır - nə əzənin, nə də əzilənin. Əgər tilsimli dairədən qurtulmağa, daha rifahlı cəmiyyətə can atmırıqsa, deməli, ona layiqik. Hərgah, düşdüyümüz durumun başqa ciddi, ümumu bir nədəni də mövcuddur - səbəblərin səbəbi deyək buna.

Bu da odur ki, iqtidarlı, müxalifətli, cəmiyyətli biz məğlub ölkənin təbəələriyik və istəsək də, istəməsək də hamımız - zəngini və kasıbı, ziyalısı və sıravisi daxil, içimizdə məğlubiyyət kompleksi daşıyırıq. O cümlədən hakim elita nə qədər özünü güclü sayıb qürurlu göstərsə də, əlahəzrət fakt ondan ibarətdir ki, o da məhz müharibəni uduzan ölkənin hakimiyyətidir.

Bəlkə də elə buna görə iqtidar heç olmasa, daxildə vaxtaşırı "əzələ nümayişi" ilə bu kompleksdən qismən qurtulmağa ümid edir, özünə bu yolla təsəlli tapmağa çalışır, qalib obrazında görünmək istəyir - dəqiq söyləyə bilmərik. Dəqiqi odur ki, məğlubiyyət kompleksindən bütövlükdə xalq olaraq birdəfəlik qurtulmağın tək yolu yalnız budur - 25 ildir evimizə soxulan, evimizdə bardaş quran işğalçını iti qovan kimi qovmaq!

Bundan ötrü isə yenə şablon səslənsə də yazaq ki, milli barış, xalqla hakimiyyətin sarsılmaz vəhdəti labüddür. Varmı belə vəhdət? Əgər xalq hökumətin yas mərasimləri ilə bağlı olduqca praqmatik və faydalı bir qadağasına da isti münasibət bəsləmirsə, ölkədə hələ də sağlam iqtidar-müxalifət münasibətləri formalaşmayıbsa, hesabı özünüz götürün.

Halbuki vəziyyətin rusca olduğu, Putin Rusiyasının müstəqilliyimizə diş qıcadığı, daxildə "5-ci kolon"çuların baş qaldırdığı vaxtda zamanın ölkə siyasi qüvvələrindən, toplumdan tələbi bambaşqadır - umu-küsüləri kənara qoyub Azərbaycan adlı gəmini necə qorumaq barədə düşünmək.

Əfsuslar olsun ki, Azərbaycan iqtidarı 21 illik zaman kəsiyində özü də daxil, xalqı məğlubiyyət kompleksindən xilas edə bilmədi. Bəli, iqtisadiyyatda, xarici siyasətdə, idmanda, səhiyyədə ölkə pis-yaxşı qabağa aparıldı, amma əsas məsələ dəyişməz qalır axı. Görəsən niyə? Cavabı yəqin ki, AXC-nin 1 illik hakimiyyətini hələ də müsavat-cəbhə iqtidarına bağışlamayanlar özləri versə yaxşıdır.

Cavab isə yenə çoxşaxəli olmaqla Rusiyada, İranda, Turanda axtarıla bilər. Amma yüzdə yüz hərlənib-fırlanıb təzədən dediyimiz dəyərin üstünə gələcək: milli vəhdətin olmaması, toplumun yekdilliyinin təmin edilməməsi, çəkici hamılıqla eyni zindana vura bilməməyimiz. Bəs niyə vura bilmirik, nəyə görə bacarmırıq?

Kritik sual da zatən, budur. Məsəl var ki, əgər bulaq gözündən bulanıbsa axar yerdə onun suyunu təmizləməyə girişməyin mənası yoxdur. Bizim bulağımız mənbədən çirklənibsə, o zaman öncəliklə bu problemi yoluna qoymalı, mənbəni arıtlamalıyıq. Ondan ötrü də ölkədə tənqidi mühit, tənqidçi media qalmalı, vətəndaş barışı yönündə heç olmasa, sonuncu körpü saxlanmalıdır. Əks halda, fəlakət (qaçılmaz) olacaq. Fəlakət gələndə isə seçmir.

İndi hamımızı yeganə olaraq bir "dəyər" birləşdirir - məğlubiyyət kompleksi. Birləşdirirmi? Bəlkə heç olmasa, bu "dəyər" ətrafında yığışaq? Azərbaycan naminə.

---

**"Azərbaycan əmin olsun ki, Qarabağ məsələsi ilə bağlı Azərbaycanın xarici işlər naziri qədər səy göstərəcəyəm. Bütün məsələlərdə güclərimizi birləşdirəcəyik". Bu sözlər Türkiyənin yeni kabinetində xarici işlər naziri postunu tutan Mevlut Çavuşoğluna aiddir. Türkiyənin Azərbaycanla bağlı siyasətindən danışan M. Çavuşoğlu bildirib ki, diplomatiya sahəsində rəsmi Bakı ilə uzlaşdırılmış siyasət yürüdüləcək.**

# Çavuşoğlu - iqtidar dostu, müxalifət küskünü

## Türkiyənin yeni xarici işlər naziri siyasilərin gözündə; dəstəkləyən də var, tənqid edən də...



Azərbaycanda Mevlut Çavuşoğlunu yaxşı tanıyırlar. Bir dönəm Avropa Şurası Parlament Assambleyasında Türkiyə nümayəndə heyətinin rəhbəri, daha sonra isə Avropa Şurasının sədri olan Çavuşoğluna Azərbaycanda münasibət birmənalı deyil. Ölkənin demokratik düşərgəsində bu şəxsi bəyənmirlər. Səbəb isə 2003-cü ilin prezident seçkilərinə bağlıdır. O zaman seçkilərdə Türkiyə nümayəndə heyətini təmsil edən Çavuşoğlu ifrat mövqeyi ilə fərqlənmişdi - xarici müşahidəçidən daha çox, iqtidar yanlısı, müxalifət əleyhdarı kimi yadda qalmışdı. Onun Avropa Şurasına sədrliyi dönəmində də Azərbaycan hakimiyyətinin yanında olması qeyd olunmalı faktdır.

Lakin bütün bunlara görə Azərbaycanın demokratik düşərgəsi ona qarşı kin saxlamalıdırmı? Onu özünə düşmən elan etməli, hər fürsətdə "iqnor" düyməsini basmalıdırmı?

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu müxalifətin bu yanaşmasını kökündən yanlış sayır:** "Çavuşoğlu kimi Azərbaycanı tanıyan, bilən bir şəxsin qardaş Türkiyə dövlətinin xarici işlər naziri olmasını çox pozitiv hadisə kimi qiymətləndirirəm. Çavuşoğlu Azərbaycanda iqtidar düşərgəsi ilə yaxın ola bilər, amma ümumilikdə Azərbaycanla ilişkisi o səviyyədədir ki, o, hər zaman Azərbaycanın maraqlarından, mənafelərindən çıxış etmək məcburiyyətindədir. Mən bu ilişkilərin səviyyəsini təxminən bilirəm. Cənab Çavuşoğlunun çevikliyinə, qabiliyyətinə də bələdəm. Hesab edirəm ki, bu şəxsin Türkiyə xarici siyasət idarəsinin rəhbərliyinə gətirilməsindən Azərbaycan qazanacaq. Bunu özü də deyir; xidmətə hazırdır. Çavuşoğlu həm də Azərbaycan iqtidarının kadrıdır. Ancaq mən bu təyinata daxili siyasət kontekstində yox, Azərbaycanın qlobal maraqları kontekstində baxıram. O baxımdan da Azərbaycan üçün, ölkəm üçün müsbət dəyərləndirirəm. Bu təyinatın Azərbaycan üçün nə qədər uğurlu olduğunu təsəvvür etmək üçün tam tərs situasiyanı təsəvvür etmək yetər. Təsəvvür edək ki, Ərdoğan Türkiyə Xarici İşlər Nazirliyinin başına bir erməni təyin edib, həmin şəxs də Ermənistan iqtidarı ilə yaxındır. O zaman Azərbaycan hansı hiss, həyəcanı keçirərdi? Əmin olun ki, Çavuşoğlunun təyinatdan ən çox pərişan olan Ermənistandır. Türkiyə və Azərbaycan siyasəti ilə yaxından maraqlanan Ermənistan iqtidarı və təsisatları Türkiyə diplomatiyasına Azərbaycana çox yaxın bir şəxsin başçılıq edəcəyindən çox məyusdurlar. Çavuşoğlu Azərbaycanın dəstəyi ilə Avropa Şurasının prezidenti seçilmiş bir şəxsdir, Azərbaycanı, Qarabağ konfliktinin mahiyyətini, hətta daxili siyasətini belə çox yaxşı tanıyan diplomatdır. Azərbaycan müxalifəti Mevlut Çavuşoğlunu sevmir, buna da haqqı var. Ancaq bu bir siyasətdir, siyasətdə küsülülüklər və zamana taxılmalar olmamalıdır. Qos-qoca Türkiyə Cümhuriyyətinin xarici işlər nazirini düşmən elan etməkdən demokratik düşərgə nə qazanacaq?"

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının sədri Arif Hacılının fikirləri isə tam fərqlidir. A. Hacılı Müsavat Partiyasının Türkiyə iqtidarının seçiminə saygı ilə yanaşdığını bildirsə də müxalifət düşərgəsinin Çavuşoğlundan incikliyini bir daha dilə gətirib:** "Çavuşoğlunun Türkiyə Cümhuriyyətinin xarici işlər naziri təyin edildiyinə təəssüf hissi keçirdim. Mevlut Çavuşoğlu Avropa Şurasına rəhbərlik etdiyi dönəmdə Azərbaycanda insan haqları, siyasi məhbuslar, seçki pozuntuları ilə bağlı məsələlərdə obyektiv mövqe tutmadı, buna görə də Azərbaycan demokratik düşərgəsində, bütövlükdə cəmiyyətdə ciddi nüfuz itkisinə məruz qalmışdı. Ancaq Türkiyə Cümhuriyyəti rəhbərliyinin seçiminə hörmətlə yanaşırıq. Mevlut Çavuşoğlu tamamilə fərqli bir görəvi həyata keçirəcək. İstərdik ki, onun fəaliyyəti Türkiyə Cümhuriyyəti üçün, ölkənin xarici siyasətinin düzgün qurulması üçün xeyirli, uğurlu olsun".

**ADP sədri Sərdar Cəlaloğlunun mövqeyi də Müsavat Partiyasının mövqeyindən fərqlənmir. Fikirlərini daha çox Çavuşoğlunun şəxsi keyfiyyətləri üzərində cəmləyən Sərdar Cəlaloğlu onu uğurlu diplomat saymadığını deyir:** "Mevlut Çavuşoğlunun Türkiyənin xarici işlər naziri təyin edilməsi ilə Türkiyənin ciddi diplomatik uğurlara imza atacağını düşünmürəm. Düzdü, Türkiyə diplomatiyası Rəcəb Tayyib Ərdoğanın şəxsi liderliyi ilə bəzi işlər görə bilib. Ancaq Türkiyə bu gün təkpartiyalı siyasi sistemə doğru inkişaf edir. Yeni hökumət formalaşdırılması prosesinə diqqət etsək görəcəyik ki, təyinatların çoxu konyuktur təyinatlardır. Yeni kabinetdə təmsil olunanların çoxu xüsusi qabiliyyət və bacarıqlarına görə yox, iqtidar komandasına sədaqətinə görə seçilib. Mevlut Çavuşoğlu Avropa Şurasına sədrlik edib, eyni zamanda Türkiyənin Avropa məsələləri naziri olub. Həmin vəzifələrdə Çavuşoğlunun xüsusi uğurlar qazandığını söyləmək olmaz. Onun yeni vəzifəsində də ciddi uğurlara imza atacağını gözləmirəm".

**Milli Məclisin üzvü, politoloq Rasim Musabəyov isə düşünür ki, Çavuşoğlu Azərbaycanın mənafeləri baxımından Türkiyənin xarici siyasət idarəsinin rəhbərliyinə ən uğurlu təyinatdır:** "Mevlut Çavuşoğlu Azərbaycanı yaxşı tanıyan, ölkəyə çox müsbət yanaşan şəxsdir. Azərbaycan rəsmilərinin onunla çox sıx kommunikasiyası var. Cənab Çavuşoğlu Avropa Şurasına sədrlik edəndə də, Türkiyənin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı olanda da Azərbaycan nümayəndə heyəti ilə çox sıx münasibətlər qurub. Bu baxımdan düşünürəm ki, cənab Çavuşoğlunun Azərbaycanın problemlərinə çox düzgün yanaşması var. Düşünürəm ki, Türkiyənin yeni xarici işlər naziri ilə münasibət qurmaq Azərbaycan üçün çox rahat olacaq".

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 220 (5929) 3 sentyabr 2014

**Müsavat Partiyası qurultaya hazırlaşır. Əlbəttə, ölkə siyasətində Məhəmməd Əmin Rəsulzadənin mirası olan Müsavat Partiyasının xüsusi yeri var. Və təbii ki, onun keçirəcəyi qurultay da önəmli məsələdir. Nəzərə alsaq ki, növbəti qurultayda Müsavata yeni başqan seçiləcək, bu partiyada gedən prosesləri izləməyə daha çox sövq edir. Təkcə Müsavat üzvlərinin deyil, kənar müşahidəçilərin, Müsavatla ilgilənən ictimai fəal adamların, yazarların, özünü bu camiyəyə dost, hətta düşmən bilənlərin də bu məsələyə dair baxışları olmamış deyil. Əgər demokratik anlamdan, fərqli fikrə hörmətlə yanaşmadan danışmağı seviriksə, bu prosesdə açılan hər bir müzakirəyə, təklifə ən azı diqqət yetirmək borcu var...**

**Elşad MƏMMƏDLİ**



# Müsavat başqanı Tofiq Yaqublu olsun

## İndiki anda Müsavat öz başqanını həbsxanadan seçsə, bunun da tarix üçün böyük anlamı olacaq

Mən Müsavat Partiyasının üzvü deyiləm. Sadəcə, bu partiyada baş verənləri bir redaktor, ictimai fəal kimi izləmişəm. Yanaşmam da bir kənar müşahidəçi və təəssübçülük anlamında qəbul oluna bilər.

Eyni zamanda Müsavatda xeyli dostlarım var. Və bu partiyanın Azərbaycan siyasətində rolunun əhəmiyyətini də dərk edirəm. Odur ki, söylədiklərim yalnız dostca bir yanaşmadır...

Hazırda Müsavat başqanlığına namizədlər müəyyənləşir. Partiya başqanlığına iddialı olan Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoyla da münasibətlərimiz daim dost səviyyəsində olub. Onların hər biri təbii ki, bu posta layiqdir. Kimin şansının nə dərəcədə olması, hansı namizədin daha çox səs qazana biləcəyinə dair fikir söyləmək mənə aid olan məsələ deyil və bu haqda danışmağım da yersiz olardı.

Sadəcə, bu prosesin daha maraqlı keçməsi üçün birləşdirici bir fiqura ehtiyac olması da göz önündədir. Əlbəttə, aydın məsələdir ki, bu gün partiyada Arif Hacılının da tərəfdarları var, Qubad İbadoğlunun da, Səxavət Əlisoyun da, Tural Abbaslının da. Funksionerlərin, sıravi üzvlərin də bir xeylisi artıq sosial şəbəkələrdə mövqelərini açıq şəkildə ortaya qoyublar. Kimi Arif bəyi dəstəkləyir, kimi Qubad bəyi, kimi də Tural bəyi. Prosesin hətta indiki gedişatı göstərir ki, partiyada seçkilərdə itkilər də olacaq, narazılıqlar da, hətta müəyyən qopmaların da olacağı istisna deyil. Obyektivlik naminə deyək ki, başqan seçkiləri məsələsində bunların baş verməsi təbiidir. Siyasi təcrübə də bunu deyir.

Burada bir məqamı da diqqətə almalıyıq ki, ortada hələlik hər kəsin, ən azı 90 faizin "mənimki" deyəcəyi bir namizəd də yoxdur. Belə bir məqamda hər kəs birləşdirici fiqur arayışında olur. Müsavatda isə hazırda belə bir fiqur var. O, hazırda həbsdə olan Müsavat başqanının müavini, "Yeni Müsavat" qəzetinin köşə yazarı Tofiq Yaqubludur. Məndən olsa, bu namizəd üzərində bütün tərəflərin anlaşma əldə etməsini təklif edərdim.



Çünki əvvəla, Azərbaycanda həbsdə olan siyasətçilərə bir qəhrəman gözü ilə yanaşma tendensiyası var. İkincisi, güman etmirəm ki, Tofiq Yaqublu haqqında Müsavatda kimsə mənfi fikirdə olsun. Onun proseslərdə iştirakı, fədakarlıqları, həbsxanada və məhkəmə prosesində ləyaqətli davranışı, kristal tərcümeyi-halı danılmazdır. İndiki dönəm üçün isə onun namizədliyinin irəli sürülməsi partiya daxilində intriqaların azalmasına, hətta tamam yox olmasına gətirib çıxara bilər...

Tofiq Yaqublu həm də Müsavat rəhbərliyində olan azsaylı şəxslərdəndir ki, narazı elektoratın digər siyasi təmsilçisi olan AXCP, Milli Şura və başqaları ilə münasibətləri pozulmayıb; onlar tərəfindən də qəhrəman, mübariz demokrat kimi qəbul olunur.

Onunla qələm yoldaşı olmuşuq. Davranışlarına, özünü sanballı aparmasına da bələdəm. Hətta burada bir məqamı da qeyd edim ki, Tofiq bəy həbsdə olduğu müddətdə mənə bir neçə dəfə məktub yazaraq, tənqid də edib. Ötən il Milli Şuranın ziyanlı fəaliyyəti barədə yazanda mənə türmədən məktub göndərmişdi, bu cür yazıları dayandırmağı tələb etmişdi; bu mövqeyini indi də yanlış saysam da, ümumi düşüncə sahibi ola bilməsi, birliyin qorunmasına çalışması məndə məmnunluq yaratmışdı.

Daha sonra da bir köşə yazıma irad bildirmişdi, bu onun nə dərəcədə həssaslığını göstərirdi. Sevdiyi qızdan rədd cavabı aldığı üçün bir gəncin özünü öldürməsini tənqid etmişdim, yazmışdım ki, qız səni sevmirsə, bu zorla olan iş deyil. Get səni sevəni sev. Tofiq bəy də türmədən mənə məktub yazmışdı, anlamı təxminən bu idi ki, mən nə bilirəm eşq-məhəbbət nədir...

Onun bu cür hərəkətləri, doğru bildikləri üçün tərəddüd etmədən savaşa hazır olması, onu heç nədən çəkinmədən ifadə etməsi hər dəfə Tofiq bəyi gözümdə qaldırıb.

O, həm də bir simvoldur. Azərbaycan siyasətinin, söz və mətbuat azadlığının türmədəki təmsilçisi olaraq, Müsavat Partiyasının və "Yeni Müsavat"ın dünya çapına çıxara biləcəyi "brend"dir. İndiki anda Müsavat öz başqanını həbsxanadan seçsə, bunun da tarix üçün böyük anlamı ola biləcəyinə əminəm.

Ümid edirəm ki, dostlarım, başqanlığa iddiaçılar bu yazıma görə məni qınamaz, nəzərlərindən silməzlər; Tofiq bəy də, hər halda, başqa zamanlarda olduğu kimi, bu dəfə də mənə məktub yazar.

Lakin istərdim ki, o, bir məktub da qurultaya hazırlıq üzrə Təşkilat Komitəsinə yazsın, namizədliyini irəli sürsün.

T.Yaqublu İsa Qəmbərdən sonra yeganə fiqurdur ki, yalnız onun başqanlığı bu təşkilatı parçalamayacaq, qopmaların qarşısını alacaq.

# Müsavat başqanlığına professor xanım namizəd ola bilər

## Almaz Əliqızı: "Bir gündə qərar dəyişə bilər..."

**Müsavat başqanlığına namizədlərin təbliğat kampaniyası davam edir. Bu günə namizədlər partiyanın Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı, Divan üzvləri - Qubad İbadoğlu və Tural Abbaslı, keçmiş müşavir Səxavət Əlisoydur. Lakin rəsmi namizədliyini irəli sürən hələ ki T.Abbaslıdır.**

Partiya funksionerləri isə kimi dəstəkləyəcəyini açıq şəkildə bəyan etməyiblər. Bəzi partiya üzvləri ayrı-ayrı çıxışlarında kimə dəstək verəcəklərinə eyham vursalar da, konkret ad çəkməyiblər.

**Müsavatın Divan üzvü, professor Almaz Əliqızı** hesab edir ki, kimin qalib gəlməsindən asılı olmayaraq, namizədlərin hər biri partiya üçün çox iş görüblər.

**A.Əliqızı konkret ad çəkməsə də, qurultayın nəticələrini gözləməyin tərəfdarıdır:** "Bu qurultay şansdan əlavə, yarış kimidir. Kim səs toplaya bilsə, qalib çıxacaq. Müsavat başqanı olacaq şəxs ilk növbədə müsavatçılıq ideologiyasına sədaqətli olmalı, partiyada əmin-amanlıq yaratmalıdır. Təşkilat içində müxtəlif düşüncəli, xarakterli insanlar toplaşıb. Hər biri sərbəst mülahizə yürüdə bilən insanlardır. Onları ayrı-ayrılıqda dinləmək bacarığı olan şəxs Müsavat başqanı olmalıdır".

**Müsavat rəsmisi başqanlığa namizədliyini irəli sürməyi də istisna etmir:** "Mənə rayon təşkilatlarından belə müraciətlər daxil olub. Onlar namizədliyimi irəli sürməyi təklif edirlər. Ancaq hələ belə bir qərarım yoxdur. Hər şey gedişatdan asılı olacaq. Bir gündə qərar dəyişə də bilər".



Almaz Əliqızı

**A.Əliqızı hər şeydən əvvəl qurultay üçün Müsavatın adına layiq bir yer ayrılmasını arzulayır:** "Müsavat qocaman bir təşkilatdır. Bu partiyanın qurultayı təkcə müsavatçıların deyil, millətin bayramıdır. Azərbaycana ilk demokratiyanı gətirən təşkilatdır. Onun şan-şöhrəti var. Ona görə də normal bir yer ayrılmalıdır".

Müsavatın sabiq deputatı, professor Nəsib Nəsibli qurultayla bağlı fikirlərini bölüşmək istəmədi. O, namizədliyini irəli sürmək arzusunda olmadığını qeyd etdi.

❑ **E.SALAMOĞLU**

# "Qərarımı yaxın günlərdə açıqlayacağam..."

## Nüşabə Sadıqlı: "Arif Hacılı və ya Qubad İbadoğlu namizəd olsa, namizədliyimi verməyəcəyəm"

**Müsavat Partiyası başqanlığına namizədliyini rəsmi şəkildə hələlik bir nəfər-Tural Abbaslı irəli sürsə də iddiaçıların sayının 4 olduğu məlumdur. Müsavat Divanının üzvü Nüşabə Sadıqlı da bir neçə ay öncəyə qədər başqanlığa namizədliyini irəli sürmək niyyətində olduğunu açıqlasa da son vaxtlar digər 4 həmkarı kimi iddialı görünmür. Sanki artıq namizədliyini irəli sürmək fikrindən daşınıb.**



Nüşabə Sadıqlı

Bu barədə dünən onunla danışdıq. Nüşabə Sadıqlı dedi ki, başqanlığa namizədliyini irəli sürmək barədə hələ qərar qəbul eləməyib. Lakin bu hələ o demək deyil ki, fikrindən tamamilə daşınıb: "Başqanlığa namizədliyimi irəli sürüb-sürməmək barədə qərarımı yaxın günlərdə verəcəyəm. Qərarımı indiyədək verməməyim son bir ayda məzuniyyətdə olmağımla bağlıdır, kimlərləsə məsləhətləşmək istəyi ilə bağlı deyil. Mən çox sərbəst adamam, heç kimin məsləhətinə ehtiyacım yoxdur. Qərarları özüm sərbəst qəbul edirəm. Bir ay idi ki, partiyadakı proseslərdə iştirak etmirdim. Artıq istirahətdən qayıtmışam və partiyadakı prosesləri izləyəcəyəm. Hələ rəsmi şəkildə ancaq Tural Abbaslı namizədliyini irəli sürüb. Daha kimlərin namizəd olacağını dəqiqləşdirəndən sonra son qərarımı verəcəyəm. Məni qane edən insanlar namizədliklərini verəcəklərsə, təbii ki, namizədliyimi verməyəcəyəm. Ona görə hələ gedişatı gözləyirəm".

**"Rəsmi namizəd hələlik bir nəfər olsa da Arif Hacılı, Qubad İbadoğlu və Səxavət Əlisoyun da iddiaçı olduğu bəllidir. Namizədlər bu dörd nəfərdən ibarət olsa necə, namizədliyinizi irəli sürəcəksinizmi" sualına Nüşabə Sadıqlı konkret cavab verdi:** "Namizədlərin sırasında Arif Hacılı ilə Qubad İbadoğlu olsa, mən namizədliyimi verməyəcəyəm. Onlardan birini müdafiə edəcəyəm".

❑ **Etibar SEYİDAĞA**



# Hakimiyyətimizə layiq olaq!

**Zamin HACI**
zaminhaci@gmail.com

**Elə xalqlar var ki, qurduqları hakimiyyət onlardan min dəfə qabağa gedir, dalda qalırlar, çata bilmirlər. Nəticədə xalq-hakimiyyət, hakimiyyət-xalq münasibətlərində müəyyən problemlər yaranır. Belə xalqlardan biri də bizim camaatdır.**

Misal üçün, görürsən hansısa rayonun icra başçısı iş yerinə bahalı maşında gəlir, onun kabinetinin qabağında özünü yandıran Qarabağ əlili isə heç “Oka” dranduletini də ala bilmir. Yaxud sən gedirsən “tolkuçkadan” uşağa ucuz məktəbli forması axtarmağa, sənin prokurorunun balası isə Londonda oxuyur, ya Parisdə deyə çobanyastığı falına baxır. Xalqımız gerək bir az romantik olsun.

İki-üç gün qabaq bir xəbər oxudum, Bakıda dükanda düşən dava haqda idi. Mənə çox sarsıdıcı təsir eləmişdir. Son aylarda 2 hadisədən sarsılmışam. Biri toy günü gəlinin qaçması, baldızın onun yerinə ərə verilməsi olmuşdusa, ikincisi də bu əhvalatdır.

Yadımdan çıxmamış deyim ki, mən hələ də o gəlini qınayıram. Bəlkə sənin bacın olmayaydı, yerinə kim ərə getməliydi, hay? Nə arsız adamlar var, milli dəyərlərimizə satqın çıxanlar var... Müstəqilliyin 23 illiyində hələ də belələrinə rast gəlmək insanı sındırır, məhv edir, üçrəngli bayrağınla məsud yaşamağa, Dövlət Bayraq Meydanında ekskursiyaya getməyə qoymur. İblisəmi uymuş bəşəriyyət!?

Qayıdaq ikinci hadisəyə. Buyurun, özünüz olduğu kimi oxuyun, görün mənim yerimə hansı hissləri keçirdirsiniz: “Metronun ”Neftçilər" stansiyası yaxınlığında “Ledi Şarm” geyim mağazasında yaranan mübahisə kütləvi davaya səbəb olub.

Axar.az-a verilən məlumata görə, müştəri satıcı qıza söz atıb və mübahisə yaranıb. Mübahisə əlbəyaxa dava ilə nəticələnib və müştərini döyüblər. O da öz növbəsində hadisə yerinə tanışlarını çağırıb və dava daha da böyüyüb. Dostunun köməyinə gələnlər mağazanın administratorunu döyüb, başını-gözünü partladıb, mühafizəçinin isə ona dəyən zərbədən ürəyi gedib, dükanda işləyən dərzi də döyülüb. Yaxınlıqda isə bir minik maşını dava zamanı təpiklərdən zədələnib. Polis hadisə yerinə gələndə mağaza işçilərini döyənlər aradan çıxıblar. Məlumata görə, mağazada çalışanlar ciddi şəkildə xəsarət alıblar".

İndi gənc, suveren dövlətimizə belə hallar yaraşarmı? Sənin əlin qurusun, mağaza administratorunu, mühafizəçini döymüsən, bunu anladıq, bəs dərzini niyə vurursan? Dərzinin bu ictimai-siyasi proseslərə nə dəxli vardır? Adam harda iş olsa iynəsini yaxasına taxıb gedir.

Hələ dərzi cəhənnəm, yaxınlıqdakı maşınları da təpikləyiblər. Guya indi bunlar çox qaraköynəkli, “nervinni” camaatdırlar... Qıza söz atmısansa, bunun küçədəki maşına şıllaq atmaqla nə əlaqəsi vardır? Camaat gedir Gürcüstandan maşın gətirir ki, sən dəli olub “Neftçilər”də ona təpik vurasan? Belə edirsiniz, ta gürcülər də maşın bazarını bağlamaq üzrədir.

Ancaq xəbərdə bəzi səhvlərin olması qənaətindəyəm. İlk növbədə, guya polisin hadisə yerinə gec gəlməsini yazıblar. (Ola bilsin müxbir milli satqındır). Təsəvvür elə, o boyda mərəkə olub, az qala rəsmi Tiflisin münasibəti ortada vardır, lakin polisimiz heç kəsi tutmayıbdır... Boş söhbətdir. Polisimiz heç vaxt gecikmir. Həmişə vaxtında gəlir. Bəzən hətta hadisə baş verməzdən on-on beş dəqiqə qabaq hadisə yerində olurlar. Bu yaxında jurnalist Seymur Həzi bir nəfərlə dalaşdı, polis onu tutdu. Həmin hadisədə prokurorluq, polis, MTN, prezident yanında Təhlükəsizlik Şurası, FHN, ASAN-xidmət, RİTN və sairənin adından birgə bəyanat verildi, deyildi ki, vətəndaş Seymur Həzinin həmin butulka-silahı su içmək məqsədilə deyil, Məhərrəmin təpəsinə vurmaq üçün alması kosmosdakı peykimiz tərəfindən qeyd edilmişdir. Sən demə, bu jurnalist nə təhər evdən çıxıb, butulkanı hardan alıb, butulka havada hansı trayektoriya üzrə uçub zəhmətkeşin başına dəyib, başdan bu zaman nə səsi çıxıb və sairə - hamısı dövlət səviyyəsində videoya alınıbdır. Hətta MTN-də o butulkanın şüşəsinin hazırlanması videosu da vardır! “Coca-Cola” butulkasıymış - inqilab eləmək istəyən şirkətdən nə gözləyəsən?

Hakimiyyətə layiq olun, yoldaşlar...

## Türkiyə Azərbaycan münasibətlərini kim gərdi - təhlil

# Ərdoğan - Əliyev görüşü öncəsi böyük təxribat

**İki qardaş ölkə arasında qısamüddətli viza şoku yaşandı; Azərbaycan-Türkiyə münasibətlərinə çat salmağa çalışdılar; Ankaradakı səfirliyimiz bunu “siyasi təxribat” adlandırdı; xəbərin qaynağı AKP iqtidarına yaxın “A haber” kanalı imiş; Bakı hər şeyi təkzib etdi; lakin ortada daha ciddi məsələlər də var...**



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya gəlməsinə saatlar qala iki qardaş ölkə arasında şok yaşandı. Türkiyə mediasının da körükləməsi nəticəsində, az qala ölkələrin cəmiyyətləri arasında çatlar yaranacaqdı.**

### Nə baş verdi və baş verənə reaksiyalar necə oldu?

Ərdoğana yaxın media-holdinqin elementlərindən olan “A haber” telekanalında “Azərbaycandan şok Türkiyə qərarı” başlığı ilə xəbər getdi. Burada kimsənin adı çəkilmədən Ankaradakı səfirliyimizə istinad vardı. Sonra bu cür xəbərlər Türkiyənin bütün KİV-lərinə sıçradı və ölkənin gündəminə oturdu.

Xəbərin mahiyyəti isə bu idi ki, guya 2014-cü ilin 1 sentyabrından etibarən Azərbaycanla Türkiyə arasında qüvvədə olan bir illik və çoxgirişli Azərbaycan vizası verilməsi qaydası ləğv olunur. Yeni qaydaya əsasən Türkiyə vətəndaşları 1 illik viza ilə Azərbaycana yalnız bir dəfə səfər edə bilər.

Xəbərdə iddia olunurdu ki, sentyabrın 1-dən etibarən Azərbaycanın Ankaradakı Baş Konsulluğu türkiyəli sürücülərə təkgirişli viza verməyə başlayıb. Bu günə qədər ildə bir dəfə viza alan Türkiyə vətəndaşları (TIR sürücüləri) bundan sonra ayda 3, bir ildə isə 40 dəfə viza almaq məcburiyyətində qalacaqlar.

Televiziyalar xəbər yayımının istiqamətini dəyişib, efirə Azərbaycanla əlaqəli simaları çıxartmağa başladılar. Onlar da asdılar-kəsdilər. Məsələn, Türkiyə Beynəlxalq Nəqliyyat Birliyinin nümayəndəsi Fatih Şener bildirdi ki, Azərbaycan konsulluğunun “...prezident Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri ərəfəsində belə bir qərar qəbul etməsi ”Bir millət, iki dövlət" anlayışına uyğun gəlmir. Azərbaycanın bu qərarı Türkiyənin 500 milyard dollarlıq ixracat hədəfinə mənfi təsir göstərəcək".

Görünən bu idi ki, hansısa qüvvələr bir anti-Azərbaycan əhval-ruhiyyəsi yaratmağa çalışırlar.

Etiraf edək ki, xəbər rəsmən təkzib edilməsəydi və doğru çıxsa idi, gerçəkdən də bir skandal sayıla bilərdi. Azərbaycan vətəndaşlarına viza tətbiq etməyən Türkiyəyə qarşı bu cür addım atmaq ikiqat yanlışlıq olardı və onu elə biz də qınayardıq.

### Ankaradakı səfirlik: “Bizim adımızdan təxribatdır”...

Lakin panika və şok yerini əvvəlcə təzadlı reaksiyalara, sonra isə birmənalı təkziblərə verdi. Məsələn, İstanbuldakı baş konsulumuz Həsən Zeynalov musavat.com-a eksklüziv açıqlama verərək, dedi ki, bu iddialar yalandır və heç bir əsası yoxdur, vizaların verilməsində qaydalar dəyişdirilməyib. Elə eyni anda Türkiyədəki səfirliyimizin mətbuat xidməti bir az düzəltmə etmək istədi və işi daha da mürəkkəbləşdirdi. Sitat: **“Azərbaycanla Türkiyə arasında viza rejiminə edilən dəyişikliklər sırf texniki xarakterlidir. Burada siyasi xarakterli heç nə yoxdur”.**

İşin gülməli tərəfi budur ki, yenə də eyni binadan - Ankaradakı səfirliyimizdən fərqli bir məzmun yayınlandı. Dövlət xəbər agentliyi olan AzərTAc Azərbaycanın Türkiyədəki səfirliyinin konsulu Şöhrət Mustafayevin adından məlumat yaydı ki, iki qardaş ölkə arasında **“...mövcud sadələşdirilmiş viza rejimi bu günə qədər tətbiq olunduğu qaydada davam etdirilir. Viza rejiminin dəyişdirilməsinə dair səfirliyin mətbuat xidmətinə istinadla yayılmış məlumatlar siyasi təxribat xarakterli şayiədən başqa bir şey deyil”.**

### Təxribatın müəllifi kimdir? 2009 təkrar olunur?

Bəli! Təxribat var, etiraf olunur, həm də bu təxribatı Azərbaycanın Türkiyədəki səfirliyinin mətbuat xidməti adından - yəni Azərbaycan adından həyata keçiriblər. Bəs bunu kim və hansı məqsədlə edib? Bu barədə qəzetimiz çapa gedənə qədər heç bir açıqlama, arayış, bildiriş verilməmişdi.

Türkiyənin yeni prezidentinin ilk xarici səfəri (KKTC də bu sıradadır - red.) ərəfəsində, Ərdoğanın Bakıya gəlişinə saatlar qala bu cür təxribat törədən qüvvələr meydan sulaya bilirsə, deməli, ortada ciddi məqamlar var. Onsuz da gələn bir sıra məlumatlar sübut edir ki, hazırda Türkiyə ilə Azərbaycan hakimiyyətləri arasında münasibətlərdə ictimaiyyətə açıqlanmayan, duyurulmayan gizli , amma ciddi soyuqluq yaranıb. Səbəb? Ermənilər! Türk düşməninə bu dəfə də Türkiyə iqtidarı isti baxmağa başlayıb və bu da Azərbaycan iqtidarını qıcıqlandırır. Ermənistanın xarici işlər nazirinin Ankaradakı inauqurasiya törəninə dəvət olunduğunu və orada sıcaq qarşılandığını bilirik. Lakin görünən budur ki, bilmədiyimiz çox şeylər var. Hansılar ki, Azərbaycan iqtidarına məlumdur və bu səbəbdən də o, gərginlik keçirir. Eynilə 2009-cu ildə, bədnam Sürix protokolları gündəmə girməmişdən az əvvəl yaşanan bir gərginlikdən söhbət gedir. O zaman Azərbaycan hakimiyyəti açıq xəyanətə uğramışdı - təfsilat verməyək, lakin bu bir faktdır. İndi ortada ciddi bir sual var: AKP iqtidarı yenədəmi ermənilərə aid beynəlxalq layihələrdə yer alıb? Yoxsa aylardır hücum taktikasında oynayan və ölkəsindəki bütün daxili rəqiblərini darmadağın edən Ərdoğan eyni taktikanı Azərbaycana da tətbiq edir? Rəsmi Bakını ermənilərlə yaxınlıq qura biləcəyi ilə sıxır ki, istədiyini sonuna qədər ala bilsin...

### Ərdoğan Bakıdan nə istəyir?

Bəs onun istədiyi nədir? Nə ola bilər? Təxmin etmək mümkündür. Cənab yeni prezident həm məşhur “Balkon qonuşması”nda, həm də sonradan böyük mərasimlərdəki çıxışlarında əsas prioritetini elan edib, savaş istiqamətini, savaşacağı hədəfləri göstərib. Ermənilər yoxdur orada! Orada “paralel yapı” adlandırdığı, 9 ay öncəyə qədər iqtidar ortağı olduğu Fətullah Gülən camaatı var. Həm də hələlik yalnız onlar var. Hörmətli Tayyib bəy onlardan Bakıda qalan izləri də qazımağamı gəlir? “Xəzər TV”-ni qapat, “Qafqaz Universitetini qapat” təhdidləri haqda şayiələr doğrudurmu? Ermənilərə münasibətdə bu reverans, “...bax, ha” təhdidi bunlar üçündürmü? Yoxsa məsələ daha dərindədir - təəhhüd götürülüb? Ki, prezident olum, Sürix protokolları və ermənilərlə bağlı başqa türlü projelərə həyat verəcəm...

Nədir o, “başqa türlü” proje? Məsələn, ermənilərlə diplomatik münasibətlərin qurulmasına start verilməsi... Bunun ardınca onsuz da avtomatik olaraq, sərhədlərin açılması gəlir...

Hər nədirsə, ortada ciddi gərginlik var və baş verən, səfirliyimizin də “siyasi təxribat” adlandırdığı xoşagəlməz hadisə boşuna deyil. Bunun böyüməməsi, iki qardaş ölkə iqtidarını bir daha küsdürməməsi üçün dua etməkdən başqa çarəmiz də yoxdur.

### Bəs nə olacaq?

Sadəcə, bu məqamda qeyd edək ki, bugünlərdə Türkiyənin yeni baş naziri Əhməd Davudoğlu 62-ci hökumətin xarici siyasətinin məqsədlərini və proqramını açıqlayarkən, Ermənistanla münasibətlərə və Dağlıq Qarabağ münaqişəsinə də toxunub. Qəzetimizin də hər üzvünün saygı və sevgi ilə yanaşdığı Davudoğlu bildirib ki, yeni hökumət Qafqaz regionunda sülhün bərqərar olması və Qarabağ münaqişəsinin tezliklə həll edilməsi istiqamətində öz səylərini əsirgəməyəcək. Eyni zamanda Davudoğlu Ermənistanla münasibətlərin normallaşması istiqamətində atılan addımların bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Bu isə sübut edir ki, Türkiyə hökuməti Ermənistanla münasibətlərdə yeni strategiya qurmağa çalışır. Şübhəsiz, anlamaq mümkündür - gələn il qondarma “erməni soyqırımı”nın 100 illiyi tamam olur. Ekspertlərə görə, Qərb paytaxtları Türkiyənin Ermənistanla əlaqələr yaratması üçün təzyiqlər edir. Ancaq sərhədlərin açılmasının Azərbaycan, eləcə də Türkiyə ictimaiyyəti üçün “qırmızı xətt” olduğunu bilən Ankara rəsmi Bakını hər hansı yolla bu layihəyə razı salmağa çalışır.

Nə olacaq? Bu sualın qismən cavabı prezidentlərin Bakıdakı görüşündə bilinəcək. Lakin çoxlarımızın bilmədiyi çox şeylər də olacaq ki, onlar da çoxlu suallar yaradacaqlar.

❑ **T.TURANCI,**
**Kənan RÖVŞƏNOĞLU**

**Rusiya prezidenti Vladimir Putin onu Ukraynaya hərbi müdaxilədə günahlandıran Avropa liderlərin sərt tonda hədələyib. Virtualaz.org saytı xəbər verir ki, bu haqda İtaliyanın "La Repubblica" qəzeti Avropa İttifaqı liderlərinin ötən şənbə günü keçirilən toplantısında gedən müzakirələrə istinadən yazır. Ötən şənbə günü Aİ liderləri Rusiyanın Ukraynanın şərqinə minlərlə əsgər və yüzlərlə hərbi texnika göndərməsinə cavab olaraq Moskvaya qarşı yeni sanksiyaları müzakirə ediblər. Lakin Aİ-nin 28 üzvü arasından Macarıstan və Slovakiya Rusiyaya qarşı yeni sanksiyalara qarşı çıxıb.**

# Putinin "Kiyevi iki həftəyə tutaram" bəyanatı digər paytaxtlara da mesajdır

## Elxan Şahinoğlu: "Rusiya prezidenti Qərbə mesaj göndərir ki, bu regionun yiyəsi mənəm"



Müzakirələr zamanı Litva prezidenti Dalya Qribauskayte Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibənin həm də Avropaya qarşı müharibə olduğunu deyib. Almaniya kansleri Angela Merkel də Rusiyaya qarşı daha sərt sanksiyalara çağırıb, bildirib ki, Moskva ilə bütün danışıqlar cəhdi səmərəsiz qalıb. "Bizim diplomatik kanalların açıq qalması üçün göstərdiyimiz bütün səylərə baxmayaraq Putin boş vədlər verib və Ukraynanın şərqində vəziyyəti daha da gərginləşdirməkdə davam edib" deyə, Merkel bildirib.

Qəzetin yazdığına görə, bundan sonra Avropa Komissiyasının prezidenti Joze Manuel Barroso söz alıb və Putinin telefon söhbəti zamanı hansı təhdidlərlə çıxış etdiyini danışıb. Barroso deyib ki, o, Putindən rus qoşunlarının Ukraynaya müdaxiləsi haqda soruşmağa cəhd edib. Lakin Rusiya prezidenti dərhal hədələməyə başlayıb və bildirib: **"Problem ondadır ki, əgər mən Kiyevi almaq istəsəm bunu cəmi iki həftəyə edərəm".**

Putin bununla Avropa liderlərinə mesaj verib ki, onu daha sərt sanksiyalarla hədələyib təhrik etməsinlər. Qəzetin yazdığına görə, toplantıda Böyük Britaniyanın baş naziri Devid Kemeron Rusiyanın Krım kimi Ukraynanın şərqini də cəzasız şəkildə ələ keçirməsinə imkan verməməyə çağırıb. O, Ukraynanın şərqindəki vəziyyəti Münhen sövdələşməsinə bənzədib. Həmin sövdələşməyə əsasən, Qərb liderləri Çexoslavakiyanın bir hissəsini Hitlerə verməyə razılaşmışdı.

Putinin Barroso ilə telefon danışığı zamanı Kiyevi almaqla hədələdiyini "Financial Times" qəzetinə Aİ-dəki yüksək rütbəli diplomatik mənbə də təsdiq edib. Mənbə deyib ki, Putin Barrosoya belə deyib: "Əgər mən doğrudan da Ukraynaya hücum etsəydim Kiyevi iki həftəyə alardım".

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri, siyasi şərhçi Elxan Şahinoğlu hesab edir ki, Vladimir Putinin "Kiyevi iki həftəyə alaram" bəyanatı təkcə Ukraynaya yox, dünyaya, əsasən də Avropaya, postsovet məkanına meydan oxumaqdır. Putin bu bəyanatla Qazaxıstana da, Azərbaycana da mesaj vermək məqsədi güdür:** "Putin region dövlətlərini bu cür bəyanatlarla, dünya güclərini isə "Rusiya nüvə dövlətidir, heç kim bizə hücum edə bilməz" bəyanatı ilə şantaj edir. Qazaxıstana, Qırğızıstana, Azərbaycana, Gürcüstana mesaj verilir. Bir ay öncə Qarabağ cəbhəsində atəşkəs ciddi şəkildə pozuldu, müharibə ehtimalı artdı və bizdə ruh yüksəkliyi yaranmışdı ki, nəhayət ordumuz bir neçə rayonu azad eləməklə masa arxasında Ermənistanı güzəştə getməyə məcbur edəcəyik. Nə baş verdi? Dərhal eşitdik ki, Rusiya prezidenti Soçidə Azərbaycan və Ermənistan prezidentlərini görüşdürmək təşəbbüsünü qaldırıb. Görüş keçirildi, nəticə oldumu? Olmadı. Putin hər iki dövlət başçısını xəbərdar elədi ki, atəşkəsi pozmayın, yoxsa bu, sizə baha başa gələ bilər. Əslində Rusiya Azərbaycanı müharibə fikrindən daşındırmaq məqsədi güdürdü. Bütün baş verənlər ondan xəbər verir ki, Rusiya bölgədə hegemonluğunu diktə etməyə çalışır və regionu tamamilə öz təsiri altına almaqda israrlıdır. Son bəyanatlarla region dövlətlərinə, Qərbə mesaj göndərir ki, bu regionun yiyəsi mənəm və istədiyim müddətdə istədiyim respublikanın paytaxtını belə tutaram".

**Ekspertin fikrincə, Qərb, Avropa Birliyi təcili surətdə Rusiya ilə bağlı çox ciddi tədbirlərə əl atmasa Putinin bəyanatları reallaşa bilər:** "Ciddi addımlar atılmasa Putin bu gün sözarası verdiyi mesajları sabah həyata keçirə bilər. Keçən il bu vaxtlar ağıla gələrdimi ki, Rusiya Krımı işğal eləyər. Heç bir siyasətçi, politoloq keçən il bu vaxt "yaxınlarda Rusiya Krımı işğal edəcək" proqnozunu vermirdi. Lakin artıq bəllidir ki, Rusiya Krımı işğal etdi və Qərbin sanksiyaları Putinə təsir göstərmədi. Nəticədə artıq Putin Kiyevi tuta biləcəyindən, nüvə silahından danışır. Əgər Qərb real güc tətbiq etməsə, Putin istənilən addımı ata bilər.

Artıq ABŞ-ın özündə də konqresmenlər prezident Barak Obamanı tənqid edir ki, onun Ukrayna siyasəti iflasa uğrayıb. Çünki Rusiyanın qarşısını olmaq mümkün olmadı. Ona görə mümkün olmayıb ki, Rusiyanın qarşısına real güc qoyulmayıb. Putinin qarşısını almağın yeganə yolu onun qarşısına real güc qoyulmasıdır. Tarixən belə olub ki, rus çarları, sovet liderləri də qarşılarında real güc görməyincə, onlar geri çəkilmirlər. Hansısa bir neçə sanksiya ilə Putinin başlatdığı siyasəti neytrallaşdırmaq çətin olacaq".

**E.Şahinoğlu vurğuladı ki, Qərb Ukraynanı xilas etmək üçün real addımlar atmasa, digər postsovet respublikalarını da xilas etmək mümkün olmayacaq:** "Qərbin ilk ciddi addımı o olar ki, Ukraynanı NATO üzvlüyünə qəbul etsin və təcili şəkildə oraya canlı qüvvələr yerləşdirsin. 2008-ci ildə o vaxtkı prezident Viktor Yuşşenko Ukraynanı NATO üzvlüyünə qəbul etdirmək üçün çalışırdı. ABŞ-ın o zamankı prezidenti Corc Buş bunu dəstəkləyirdi. Amma Fransa və Almaniya qarşısını aldılar. O zaman Ukrayna NATO üzvlüyünə qəbul olunsaydı bu gün Rusiya NATO dövlətinin ərazisini işğal etməkdən çəkinərdi. İndi də hər şey itirilməyib. Ukrayna NATO-ya qəbul edilsə, dönüş nöqtəsi ola bilər. Bu dəfə də Avropanın böyük dövlətləri və ABŞ Ukraynanı xilas üçün addımlar atmasalar bütün region Rusiyanın əlinə keçə bilər".

**Politoloq Pol Qobl da bildirib ki, təmsil olunduğu ölkə və Avropa Birliyi təcili hərəkətə keçməsə, Rusiya Baltikyanı ölkələrə və Cənubi Qafqaza da müdaxilə edə bilər:** "Rusiya Ukraynaya müharibə elan etmədən hərbi müdaxilə edib. Rusiyanın bu addımı ümumilikdə bütün region üçün təhlükədir. Putin artıq açıq formada öz qoşunlarını Ukrayna ərazisinə göndərir. O, əvvəl bunu inkar etməyə, Ukraynada rusların deyil, azadlıq istəyən şəxslərin öz hüquqları uğrunda mübarizə apardıqlarını deyirdi, indi isə açıq formada öz qoşunları ilə Ukraynaya müdaxilə edir".

**Politoloq Qərbi və ABŞ-ı Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etməyə səsləyib:** "Rusiyaya qarşı tətbiq olunan sanksiyalar daha da sərtləşdirilməlidir, Ukraynaya mütləq hərbi yardım etmək lazımdır. Əgər Putinin qarşısı alınmazsa, o, Baltikyanı ölkələrə və Cənubi Qafqaza da hərbi müdaxilə edə bilər".

❑ **Etibar SEYİDAĞA**

# Başqan kim olsun?



**Hüseynbala SƏLİMOV**

**Ürəklərimiz də boşalıb. Hamımız bir xoş xəbərin sorağındayıq. Bu xəbər bir xoş səhərdə gələcək. Hələlik isə bu günün qayğılarını çəkməliyik. Çoxdandır ki, müxalifət haqqında yazmırıq. Bunu təkcə ona görə etmirik ki, müxalifət ölkədə getdikcə daha az hiss olunmağa başlayıb. Yox, səbəb bu deyil. Hər dəfə müxalifət sıralarından olmasa da, daha çox ictimaiyyət düşərgəsindən olsa da, hər halda, bir xeyli insan təqiblərə məruz qalır. Əgər bu insanlar bu və ya başqa şəkildə təqib olunursa bu, mübarizə deyil, bəs nədir?**

Qərəz, hələ ki mübarizə aparan insanlar qalıb. Bunun üçün ölkədə bir stimul da vardı. İnsanlar ictimai fəallığın sayəsində beynəlxalq təşkilatlardan maliyyə dəstəyi də alırdılar. Bunu da etiraf etmək lazımdır. Hakimiyyət dairələri indi məhz bu stimulu yox etmək istəyirlər.

Nə isə. Bütün bunlar o qədər adiləşib ki, az qala "siyasi rutin"ə çevrilib. Elə bu günkü mövzumuz da bir qədər bundan fərqli predmet üzərində qurulacaq.

Bəli, Müsavat başqan seçməyə hazırlaşır. Əvvəl böyük tərəddüdlər vardı. İnsanlar düşünürdü ki, nə etsinlər? Nizamnamənin tələbi ilə getsinlər, yoxsa indiki siyasi reallıqları nəzərə alsınlar? Deyəsən, axırda birinci xətt qalib gəldi. Müsavatçılar yeni başqan seçməyə hazırlaşırlar. Hakimiyyət o qədər təlaş keçirir, vurnuxur ki, bu qurultaya normal bir yerdə toplanmağa imkan vermir.

Amma partiyanın bütün hallarda qurultay keçirmək əzmi təqdirəlayiqdir. Burada hansı prinsip əsas götürülməlidir? Güman edirik ki, partiyanın ali orqanlarında bu məsələ çox çözülüb. Hətta müəyyən bir xətt də cızılb.

Nə etmək lazımdır? Sadəcə, insanlara seçib-seçilmək imkanı vermək lazımdır. Doğrusu, mənim üçün "Partiyanın başqanı kim olacaq" sualının elə bir önəmi yoxdur. İndiki mərhələdə başqa bir sual, "Partiyanın lideri kim olacaq?" sualı daha önəmlidir. Ona görə də izafi təlaş üçün elə bir əsas yoxdur.

Bu yaxınlarda bir müsavatçı ilə söhbət edirdik. O deyirdi ki, başqanlıq postu yalnız İsa Qəmbərə yaraşır. Biz bu adamın səmimiyyətini başa düşürük. İnsanların İsa Qəmbərə böyük rəğbəti var. Amma təəssüf ki, bu, qeyri-müsavatçılar arasında əvvəlki dövrlərdə, məsələn, 2000-ci ilin əvvəllərində olduğu kimi deyil. Bunu da etiraf etməyə mənəvi güc lazımdır. Güman ki, İsa bəy özü də razılaşar ki, son vaxtlar o, mübarizənin tempini bir qədər aşağı salıb. Bu, xüsusən də bölgələrdəki insanların ovqatından hiss olunur.

Amma nə etmək olar? Biz bəzən özümüzdən asılı olmayan reallıqlarla hesablaşmağa məcbur oluruq. Bəzən də insanlar bu reallıqları aşmağa cəhd edirlər. Bu da təbiidir. Reallıqların əsiri olmaq da bir şey deyil. Düzdür, indi reallıq budur ki, ortalıqda nizamnamə və onun tələbi var.

Hamı da gözləyir ki, görən, Müsavat nə edəcək? Ona görə də partiya effektiv siyasət yolunu tutmalıdır. Bu yol isə praqmatik siyasətdir. Bir qədər praqmatik olmağa, trivial situasiyalardan mürəkkəbliyə keçid etməyə ehtiyac var.

İsa Qəmbər lider kimi qala və partiyanı növbəti prezident seçkisində təmsil edə bilər. O da sübut etməlidir ki, partiya başqanı olmaq onun üçün o qədər də önəmli deyil.

Təbii ki, indi başqan olacaq adamdan da çox şey asılıdır. Ortalıqda şirnikləndirici məqamlar da az deyil. Bu hakimiyyət çox istərdi ki, Müsavatı da özünə tabe etsin, onu da xırda siyasət "toçkaları"ndan birinə çevirsin.

Çox güman ki, partiyanın özündə də belə hisslərlə, hətta planlarla yaşayanlar da var. Onlar da başqanlığa can atacaqlar. Güman ki, hakimiyyət İsa Qəmbərin başqanlıqdan gedişi üzərində siyasət qurmağa çalışacaq. Çünki onun da Müsavatı xırda siyasi "toçka" kimi görmək arzusu və planları var.

Amma bunlar birinci dərəcəli problem deyil. Əsas odur ki, insanlar əsl seçkinin iştirakçısı olsunlar. Bizim bu son illərdə qəribsədiyimiz proseslərdən biri də əsl, demokratik seçkidir. Ölkə miqyasında bunu yalnız arzulamaq olar və bu arzu nə vaxt baş tutacaq, təəssüf ki, bunu heç kim bilmir. Amma bir partiya daxilində əsl seçki keçirmək realdır.

Həm də insanlara daha bir demokratiya dərsi keçmək lazımdır. Dərs sözündən də çəkinmək lazım deyil. Hər şeyi öz adı ilə çağırmaq gərəkdir. O şeyi ki, insanlar hələ yetərincə bilmirlər, onun dərsini keçmək, onu tədris etmək lazımdır. Bundan niyə çəkinək ki?



# Keçmişin davamı

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Ötən əsrin 70-ci illərinin sonunda qəfildən ət-yağ qəhət oldu. Camaat da buna səbir və dözümlə yanaşdı. Kimi dedi ki, belə qıtlıq Əfqanıstandakı müharibə ilə bağlıdır, kimi də dedi ki, düşmən qəsdə düşüb - daha ABŞ, Kanada bizim ölkəmizə taxıl satmır. Bu versiyalar içində biri xüsusilə maraq doğururdu: Azərbaycan ölkənin ikinci böyük şəhərini - Leninqradı (indiki Sankt-Peterburqu) ərzaqla təmin etməyi öz öhdəsinə götürüb! Bunu adamların gördükləri də təsdiq edirdi. Vaqonlarla kənd təsərrüfatı məhsulları bu ünvana daşınırdı. Daha bundan böyük də sübut ola bilməzdi...**

Nə qədər qəribə olsa da, kimsə narazılıq etmədi. Ayda adambaşına bir kilo ət, yarım kilo kərə yağı normaya döndü. Onun üçün də növbəyə düzülmək dözüm tələb edirdi. Bu, xeyli uzun çəkdi - düz SSRİ-nin süqutuna kimi davam etdi...

Hamı çaşqınlıq içində yaşayırdı. Bir beşillikdə iki beşillik plan yerinə yetirilirdi, yəni ki, ikiqat ət-yağ, tərəvəz istehsal edilirdi. Üzüm, pambıq tədarükü isə bütün əndazələri aşırdı, rəqəmlər fantastik təsir bağışlayırdı. İllər sonra bildik ki, statistik biclik belə məqamda köməyə yetirmiş - hər şey ikiqat-üçqat artıqlaması ilə kağız üzərində ödənirmiş...

İndi ölkədə yaşayanların bəlkə də yarıdan çoxu o günlərin şahidi olmayıb. Amma mentalitet oxşarlığı əvvəlki kimidir. Bu qədər işsiz-gücsüz adam gözümüz önündə vurnuxur, amma statistikaya görə bizim ölkədə bu sahədə heç bir problem yoxdur... Yoxsulların sayı isə bütün dünyanın qibtə edəcəyi qədər aşağıdır... Bir milyon üç yüz min iş yeri açılıb, regionların inkişaf proqramı isə fantastik bir sürətlə həyata keçirilir.

Lap köhnə mahnını yeni aranjimanda oxumağın məqamıdır: “Cənnət görmək istəyən Azərbaycana gəlsin...” Amma gələnlər də heyrətdən dönür: nədən neft və milyonlar səltənətində belə rəzalət hökm sürür? Bunu dilə gətirələr müqayisələrə istinad edirlər. Biz isə hələ də 30-40 il əvvəlki kimi statistik ilğım içində yaşayırıq.

Tamam fərqli bir cəmiyyətdə yaşayırıq. Artıq bir beşillikdə iki beşilliyi qabaqlayan müəssisələr özəlləşib. Plan raportu verən kolxoz sədrlərinin yerini fermerlər tutublar, zavodların əksəriyyəti isə sökülüb, yerində yaşayış evləri, şadlıq sarayları, ticarət obyektləri tikilib. Amma biz köhnə şakərimizdən əl çəkməmişik - yenə statistik göstəricilər bütün əndazələri aşır, Azərbaycan elə əvvəlki kimi “iri addımlarla irəliyə gedir”.

Əslində statistikada kosmetik dəyişiklik baş verib, o indiki idarəçiliyin tələblərinə uyğunlaşdırılıb. Hər şey bahalaşır, amma inflyasiyanın həddi qəsdən aşağı salınır. İnsanlar məzənnəsi süni şəkildə dondurulan manatla gün-güzəran qayğılarını çəkirlər. Qəribə də olsa, məhz indi bizim milli valyutamız dollardan xeyli baha, alıcılıq qabiliyyəti isə elə o qədər də aşağıdır. Sınaq üçün 100 dollara başqa ölkədə ala biləcəyiniz ərzağı, məişət ehtiyaclarını Azərbaycanla müqayisə edin - nədə yanıldığınızı dərhal görəcəksiniz. İllərdən bəri inkişaf görüntüsü xatirinə danılan statistik göstəricilər ağır yük kimi hər kəsin çiyninə düşüb.

Biz sadəcə olaraq, statistik xoşbəxtlik yaşayırıq. Kağız üzərində artan əmək haqları, təqaüdlərlə müqayisədə yaşam şərtləri olduqca sərt və amansızdır...

On-on iki il əvvəl 450 min manata (45 “şirvana”) əmin-arxayın yaşayan bir ailə indi on dəfə çox “qazanıb”, elə o qədər əzablara qatlaşır. Bizimlə qonşu ölkələrdə isə mənzərə xeyli fərqlidir. Bircə səbəb var: orada süni şəkildə inkişaf eyforiyası hökm sürmür.

Hər kəs sual verə bilər ki, axı bu şişirdilmiş rəqəmlər nəyə gərəkdir. Nə qədər qəribə də olsa, bu eynən keçmişdəki kimi təbliğata hesablanıb. Əslində olmayan uğurlar bir öhdəlik kimi bizim adımıza yazılır. Biz isə sakit-səssiz, olsa-olsa, dodaqaltı gülümsəyib bütün baş verənlərə tamaşa edirik. Hakimiyyət isə statistik xoşbəxtlik icad etməkdən usanmır. Statistika getdikcə siyasi manipulyasiya alətinə çevrilir...

Sonda hər kəs üçün ortaq qənaət belə olacaq: nə dəyişib ki! Olsa-olsa, polis rejimi bir az sərtləşib, həbslər, təqiblər daha amansız olub. Qalan nə varsa köhnə axarı ilə davam edir...

Analoqu olmayan ölkədə yaşayırıq - statistikaya görə hətta dünyanın inkişaf etmiş ölkələri də bizimlə müqayisəyə sığmırlar. Rəqəmlərin gücü-qüdrəti də elə bundadır.

# Erməniləri neçə dəfə üstələyirik?

## İqtisadçı alim Vüqar Bayramovdan ilginc açıqlamalar

**Avqustun 28-də Beyləqan rayonunda prezident İlham Əliyev Ermənistanda iqtisadi vəziyyətin ağır olması və insanların bu ölkəni tərk etdiyini bəyan etdi. Bir müddət öncə, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının yaydığı hesabatda qeyd edilir ki, iqtisadi inkişaf münaqişələrin həllində artıq əsas vasitəyə çevrilir.**

Müharibələrin xalqların iqtisadi inkişafına mənfi təsir etdiyini bir daha təsdiq edən təşkilat ekspertlərinin rəyinə əsasən, münaqişə zonalarındakı inkişaf problemin həlli üçün əsas baza rolunu oynaya bilər. Bu əslində bir daha təsdiq edir ki, işğalçı siyasəti davam edənədək Ermənistanın sıxışdırılması strateji əsaslandırılmış bir yanaşma idi.

**İqtisadçı-alim Vüqar Bayramov** musavat.com-a bildirib ki, ittifaq dövründə uzun müddət Moskvanın maliyyə dəstəyindən faydalanan Ermənistanda iqtisadi-sosial durum keçmiş SSRİ dağılan zaman Azərbaycandan heç də ciddi fərqlənmirdi. O zaman müharibəyə iqtisadi baxımdan üstün mövqe ilə başlayan düşmən qonşumuz 22 il sonra məhz öz işğalçı siyasətinin nəticəsində regional inkişafdan geri qaldı.

**Onun sözlərinə görə, sadəcə, rəsmi rəqəmlərə istinad göstərir ki, Azərbaycanın dövlət gəlirləri düşmən qonşumuzun qazancından 10 dəfə çoxdur:** "Dövlət büdcəmizin gəlirləri 25 milyard dollara çatdığı halda bu göstərici Ermənistanda cəmi 2.5 milyard dollardır. Kiçik büdcəyə malik olan Ermənistan il ərzində hərbi məqsədlə 451 milyon dollar xərcləyir. İllik 2.1 milyard dollar müdafiə xərcinə malik olan Azərbaycan bu kateqoriya üzrə düşmən ölkəni 5 dəfəyə yaxın üstələyir. Digər tərəfdən, Ermənistan ümumi büdcə xərclərinin 20 faizini hərbi sektora ayırmaqla, Avropa Birliyinin bu xərclərin büdcədəki payı ilə bağlı standartlarına məhəl qoymasa da Azərbaycan müdafiə xərclərinin dəyər ifadəsində çox olmasına baxmayaraq, bu xərc maddəsinin ümumi büdcə xərclərində payı 8 faizə yaxındır. Bu baxımdan, hərbi xərclərin dəyər ifadəsində Azərbaycana kəskin uduzan Ermənistan əslində hərbi xərclərlə bağlı Avropa faiz kvotasına məhəl qoymasa da reallıq bundan ibarətdir ki, ölkəmizin müdafiə xərcləri təxminən düşmən qonşumuzun ümumi büdcəsi həcmindədir".



**“74 milyard dollar ÜDM-ə malik olan ölkəmizin iqtisadi potensialı düşmən ölkə ilə müqayisədə 7.4 dəfə çoxdur”**

Vüqar Bayramov deyib ki, 10 milyard dollar Ümumi Daxili Məhsula malik olan Ermənistanda iqtisadiyyatın formalaşmasına lobbi yardımları və ianələr xüsusi rol oynadığı üçün bu, düşmən ölkənin iqtisadi inkişafı üçün dayanıqlı zəmin yaratmır. 74 milyard dollar ÜDM-ə malik olan ölkəmizin iqtisadi potensialı düşmən ölkə ilə müqayisədə 7.4 dəfə çoxdur. Praktik olaraq, dövlət gəlirlərində ciddi müqayisəli üstünlüyə malik olan Azərbaycan iqtisadiyyatı miqyasına görə də düşmən ölkəni kəskin üstələyir.

Vüqar Bayramov əlavə edib ki, Ermənistan iqtisadiyyatı ilə bağlı digər diqqəti çəkən məqam iqtisadi artımın real olmamasıdır. Belə ki, ötən ilin yekunlarında 3.5 faiz iqtisadi artıma malik olan işğalçı ölkədə inflyasiya səviyyəsi 5.9 faiz olub. Bu isə o deməkdir ki, inflyasiya iqtisadi artımı 60 faiz üstələyib və bu da artım real deyil, nominal olmasına gətirib çıxarıb. Qeyd edək ki, 2013-cü ildə ölkəmizdə iqtisadi artım 5.8, inflyasiya səviyyəsi isə 2.4 faiz olub.

**Onun sözlərinə görə, Ermənistan yoxsulluq səviyyəsinə görə MDB ölkələri arasında ən pis göstəriciyə malik olan dövlətlərdəndir. Bu ölkənin Milli Statistika Komitəsinin məlumatına görə, ölkə əhalisinin 32.4 faizi yoxsulluq həddində yaşayır:** "Ermənistan Mərkəzi Bankının hesablamalarına görə isə təqaüdçülərin 60 faizindən çoxu yoxsulluq həddində yaşayır. Rəsmi statistikada ölkə əhalisinin 32.4 faizinin yoxsulluq həddində yaşadığı öz əksini tapsa da, BMT-nin İnkişaf Proqramının hesabatına əsasən, bu göstərici 48 faizə bərabərdir. Hətta rəsmi statistika belə Ermənistanda hər 4 nəfərdən 1-nin yoxsulluq həddində yaşadığını göstərir. Digər tərəfdən, söhbət sadəcə Dünya Bankının qiymətləndirmələrinə əsasən gündəlik gəliri 2 dollardan az olan insanlardan gedir. Halbuki BMT-nin son metodologiyası Ermənistan əhalisinin yarıdan çoxunun yoxsulluq həddində yaşadığından xəbər verir. Azərbaycan Statistika Komitəsinin məlumatına görə, ölkəmizdə yoxsulluq səviyyəsi 5.7 faizdir. Bu isə ondan xəbər verir ki, yoxsulluq səviyyəsinə görə ölkəmizdə vəziyyət mənfur qonşumuzla müqayisədə ən azı 7 dəfə yaxşıdır".

**Vüqar Bayramov deyib ki, Ermənistan Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə işsizlik səviyyəsi 17.9 faizdir:** "Beynəlxalq hesabatlarda isə bu göstərici 36 faizə yaxındır. Həm rəsmi, həm də beynəlxalq hesabatlar sözügedən ölkədə işsizliyin əsas sosial problemlərdən olduğunu göstərir. İşsizlik problemi eyni zamanda Ermənistanda ölkəni tərk edənlərin sayındakı artımda özünü göstərir. Bu isə düşmən ölkədə demoqrafik vəziyyətin heç də yaxşı olmadığından xəbər verir. Göründüyü kimi, Ermənistan hakimiyyəti bu ölkə üçün heç də yaxşı vəziyyətə gətirib çıxarmayıb: xarici borc asılılığı artır, yoxsulluq dərinləşir, insanlar iş tapa bilmir. Müqayisə üçün qeyd edək ki, ölkəmizdə işsizlik səviyyəsi cəmi 5.2 faizdir. Yoxsulluq əhalinin Ermənistanı tərk etməsinə və eləcə də təbii artımın səviyyəsinin neqativ olmasına gətirib çıxarıb. Ermənistan Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ölkədə təbii artım mənfi 6 faizdir. Deməli, əhalidə artım deyil, azalma və qocalma müşahidə edilir. Qeyd edək ki, ölkəmizdə təbii artım 13 faizdir".

İqtisadçı alim onu da deyib ki, Ermənistanın xarici borcu artıq 6 milyard dollara çatıb və Ümumi Daxili Məhsulun (ÜDM) 56 faizi deməkdir. 2013-cü ildə sözügedən ölkədə ÜDM-də artım 3.5 faiz olduğu halda xarici borc 5 faizdən çox artıb. Bu ölkənin xarici borcunun 85.2 faizi dövlət borcudur ki, bu da düşmən dövlətin xarici asılılığının daha da dərinləşməsinə gətirib çıxarır. Azərbaycanın xarici borc məbləğində diqqəti çəkən əsas müsbət məqam ondan ibarətdir ki, ölkə xarici borcun Ümumi Daxili Məhsuldakı payına görə MDB-də ən yaxşı göstəriciyə malikdir. Belə ki, bu göstərici Azərbaycanda 8.2 faiz olmaqla regionda bu sahədə ən yaxşı mövqeyi malik olan Özbəkistan (11,2 faiz) və Rusiyanı (14.1 faiz) qabaqlayır. Ermənistan isə MDB-də ən pis göstəriciyə malik ölkələrdən hesab edilir.

❑ Musavat.com

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 220 (5929) 3 sentyabr 2014

# Rəsmi Bakıdan Sərkisyanın Qarabağa gəlişinə sərt təpki

## Müdafiə və Xarici İşlər nazirliklərindən reaksiya gəldi

**Ermənistan prezidentin Serj Sərkisyanın Azərbaycanın işğal altındakı ərazilərinə növbəti səfəri rəsmi Bakı tərəfindən etiraz doğurub. Ancaq maraqlısı budur ki, bir erməni diversantın ürəktutmasından ölməsinə çevik və operativ reaksiya bildirib Azərbaycandan hesab istəyən həmsədr ölkələr Azərbaycanın suveren ərazilərinə səfər edən cani prezidenti qınamaq fikrindən belə uzaqdır.**

"Media forum" saytı xəbər verir ki, işğal altındakı Azərbaycan torpaqlarına qanunsuz səfər edən Ermənistan prezidenti Serj Sərkisyan sentyabrın 1-də Şuşaya baş çəkərək geologiya muzeyinin açılışına qatılıb. İşğalçı dövlətin başçısı həmin gün Ağdərənin Çapar kəndində yeni məktəb binasının istifadəyə verilməsi mərasimində də iştirak edib, axşam isə Xankəndində operaya baxıb. Sərkisyanın Dağlıq Qarabağa avqustun 31-də başlayan səfəri Azərbaycan ərazisində qurulmuş işğalçı Dağlıq Qarabağ rejiminin 23 illiyi ilə bağlıdır. 1991-ci il sentyabrın 2-də yaradılmış Dağlıq Qarabağ rejimi 23 ildir Azərbaycanın bütün cənub-qərbinə nəzarət edir.



**Elman Abdullayev:** "Xüsusilə Minsk Qrupu bu cür qanunsuz səfərlərə qarşı çıxmalı, etirazını bildirməlidir"



**Vaqif Dərgahlı:** "Düşmənə ağır zərbə endirmək imkanlarımız var"



**Zahid Oruc:** "Sərkisyanın keçmiş hərbi mundiri artıq işə yaramır"

Beynəlxalq ictimaiyyətin ikili mövqeyindən sui-istifadə edən Sərkisyan isə Xankəndi və Şuşada ayrı-ayrı açılış mərasimlərində iştirak etdiyini göstərməklə burada kök salan erməniləri sakitləşdirməyə çalışır. Azərbaycan Xarici İşlər Nazirliyi artıq məsələyə reaksiya verib. Mətbuat xidmətinin rəhbəri Elman Abdullayev bildirdi ki, Sərkisyan işğalçı dövlətin başında duran şəxsdir və onun Azərbaycanın işğal olunmuş ərazilərinə gəlməsi beynəlxalq təşkilatlar tərəfindən birmənalı şəkildə pislənməlidir: "Bunu beynəlxalq təşkilatların prinsipləri, beynəlxalq qanunlar tələb edir. Azərbaycanın işğal olunmuş bölgəsinə səfər Ermənistanın işğalçı niyyətinin davamıdır.

Bu cür təxribat xarakterli addımlar yalnız münaqişənin həllinə xələl gətirir və bu cür səfərlərin qanunsuz olduğunu beynəlxalq ictimaiyyət birmənalı şəkildə bəyan etməli, bunun üçün etiraz səsini ucaltmalı, öz mövqeyini bildirməlidir. Xüsusilə də ATƏT-in Minsk Qrupu Sərkisyanın bu cür qanunsuz səfərlər etməsinə qarşı çıxmalı, öz etirazlarını bildirməlidir. Çünki bu ərazi Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış əraziləridir. Son addım bir daha Ermənistanın işğalçı simasını nümayiş etdirir".

XİN sözçüsü Bakının mövqeyini bir daha düşmən ölkənin nəzərinə çatdırdı: "Buna heç kimin şübhəsi olmasın ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Qarabağın gələcəyi yalnız və yalnız Azərbaycanla bağlıdır. Bu səfər Ermənistan prezidentinin, işğalçı rejimin başında duran bir şəxsin Azərbaycan xalqına qarşı cinayətlər törədən Ermənistan dövlətinin beynəlxalq hüquqa və prinsiplərinə nə qədər hörmətsiz yanaşdığını göstərir". **E.Abdullayev Bakının faktla bağlı beynəlxalq aləmə müraciət etdiyini də vurğuladı:** "İstənilən qanunsuz səfərlə bağlı Azərbaycan müvafiq qurumlara müraciətlər edir. Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması üçün biz qətiyyətli mövqeyimizi davam etdirəcəyik".

Məsələyə Müdafiə Nazirliyinin mətbuat xidmətindən də reaksiya verilib. "Ermənistan prezidenti Sərkisyanın Dağlıq Qarabağa səfəri qeyri-qanunidir. Bu, həm də işğal olunmuş ərazilərdəki ermənilərin narahatlığının, narazılığının qarşısını almaq, əhalini sakitləşdirmək üçün atılan qanunsuz addımdır". **Nazirliyin mətbuat katibi Vaqif Dərgahlı** bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi. MN rəsmisinin sözlərinə görə, Sərkisyan Qarabağdakı işğalçı qüvvələrin durumunun ağır olmasını, nizam-intizamın aşağı səviyyədə olduğunu yaxşı bildiyi üçün vəziyyətlə yerindəcə tanış olmaq üçün ərazilərimizə qanunsuz səfər edib: "Amma Dağlıq Qarabağda keçirilən hər hansı tədbir, yaxud parad ciddi qəbul oluna və tanına bilməz. Hətta dünya ölkələri tərəfindən tanınan Ermənistan belə separatçı qurumu rəsmən tanımır. Bu mənada orda keçirilən istənilən tədbir quldur qurumunun, separatçı rejimin qanunsuzluğu və növbəti cinayətdir".

**Virtualaz.org saytı xəbər verib ki, Azərbaycan Pakistandan orta və yaxın mənzilli müasir ballistik raketlər alıb. Bu barədə ilk olaraq "Turan" agentliyi Pakistan KİV-lərinə istinadən xəbər yayıb. "İsrael Military İndustries" tərəfindən istehsal edilən raketlər 306 mm kalibrə malikdir, uzunluğu 3,97 metr, döyüş başlığının çəkisi 125 kiloqramdır. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri V.Dərgahlı bildirdi ki, bu barədə suala Müdafiə Sənayesi Nazirliyi cavab verə bilər. Bununla belə, nazirlik rəsmisi Azərbaycanın belə imkanlarının olduğunu da təkzib etmədi:** "Bizim silahlanma sahəsində imkanlarımız genişdir. Bu mənada düşmənə ağır zərbə endirmək imkanlara malikik". Müdafiə Sənayesi Nazirliyindən isə sorğumuza cavab ala bilmədik.

***

**Bu arada Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini, general-leytenant Haykaz Bəhmənyan Azərbaycanın müharibəyə hazırlaşdığını deyib. Erməni generalın sözlərinə görə, müharibə təhlükəsi nə dünən, nə bu gün azalmayıb. V.Dərgahlı Ermənistanın müharibə ilə bağlı narahatlığına da reaksiya verdi:** "Qoy onlar müharibəyə hazır olsunlar. Biz həmişə hazırıq. Bizim Silahlı Qüvvələrimiz düşmənin istənilən təxribatının qarşısını almağa və ona cavab verməyə hazırdır".

**Xatırladaq ki, ermənilər adətən Azərbaycanı müharibə hazırlığı, yaxud hücumda ittiham edərək ardınca diversiya-təxribat qüvvələrini hərəkətə gətirir. Azərbaycan ordusu bunu nəzərə alırmı? MN rəsmisi:** "Onlar hər zaman təxribatlara əl atırlar və hər dəfə də cavablarını alırlar. Son hadisələr də göstərdi ki, onların təxribatçı qüvvələrinin istənilən həmləsinin qarşısını almaq üçün Silahlı Qüvvələrimiz daim hazırdır".

Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Orucun erməni prezidentin Qarabağa gəlişinə özəl yanaşması var: "Sərkisyanın Xankəndinə gəlişi Azərbaycan ordusu ilə son silahlı toqquşmanın erməni cəmiyyətində, xüsusilə Qarabağın yerli əhalisində və onun siyasi rəqibləri içərisində baş qaldırılmış antidövlət əhval-ruhiyyəsinin qarşısını almağa, əhali içərisindəki xof və qorxu hissini azaltmağa və hərbi birləşmələrin parad vasitəsilə gücünü bizə göstərməyə hesablanıb. Üstəlik, cənab Ali Baş Komandan İlham Əliyevin böyük çeviklik və cəsarətlə, hərbi sərkərdə qüdrəti ilə silahlı toqquşmanın son episentrinə - Ağdama gedərək ən yaxın döyüş bölgəsində müşavirə keçirməsi, əsgərlə rəhbərin birliyini nümayiş etdirməsi qarşı tərəfi olduqca narahat edib".

**Z.Oruc hesab edir ki, Sərkisyanın keçmiş hərbi mundiri artıq işə yaramır:** "Onu nəinki Rusiya qarşısında qorxaqlıqda qınayırlar, eləcə də Azərbaycan liderindən də bütün parametrlər üzrə geri qaldığını və hərbi taktiki və siyasi-diplomatik məsələlərdə Ermənistanın ölkəmizə uduzduğunu açıq dilə gətirməkdən çəkinmirlər. Ona görə də Sərkisyanın Qarabağa gəlişi cənab prezidentin Ağdam müşavirəsinə qətiyyən cavab reaksiyası səviyyəsində qəbul oluna bilməz və Ermənistanda, eləcə də Xankəndində qabarıq nümayiş olunan isterika bundan sonra da davam edəcək. Lakin bütün hallarda Azərbaycan ordusu istər kəşfiyyat, istərsə də ordu birləşmələrinin döyüşə hazırlığı baxımından Sərkisyanın səfər təxribatlarına hazırdır və istənilən revanş cəhdinin qarşısını almağa qadirdir".

****

### "Ermənistan mediası ordumuz haqqında dezinformasiya yayır"

**"Biz sağlam tənqidin, düzgün iradın, məsuliyyət və peşəkarlığın tərəfdarıyıq, ancaq Ordu məsələsində qərəz, kin, ayrı-seçkilik yolverilməzdir. İnformasiyaların ötürülməsində hərbi xidmətin və müharibə şəraitinin xüsusiyyətləri, Müdafiə Nazirliyinin qapalı qurum olması və bir sıra digər amillər mütləq nəzərə alınmalıdır". Bunu "Trend"in sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri polkovnik Vaqif Dərgahlı deyib.**

**V.Dərgahlı qeyd edib ki, yayılan məlumatların monitorinqi bəzi media nümayəndələrinin bu məsələlərə qeyri-peşəkar yanaşmasını müəyyən edib:** "Hərbi hissələrin nömrələri, təyinatı, dislokasiya yerlərinin göstərilməsi, xidməti təyinatlar və yerdəyişmələr barədə məlumatlarda şəxslər haqqında fərdi informasiyaların yayılmasının yolverilməzliyi dəfələrlə tövsiyə olunmasına baxmayaraq, bəzi media nümayəndələri hələ də bu praktikanı davam etdirirlər".

**Mətbuat xidmətinin rəhbəri bununla bağlı bir neçə faktı misal göstərib:** "Silahlı Qüvvələrin rəhbərliyi cəbhəyanı bölgədə kollegiya iclası keçirir. Təhlükəsizlik məsələləri nəzərə alınmaqla məlumatın bir gün sonra mətbuata ötürülməsi qərarına baxmayaraq, iclasdan az sonra bəzi mətbuat nümayəndələri məlumatı əldə edir və yayırlar. Cəbhədə əsgər şəhid olur. Araşdırma aparılır. Şəhidin valideynlərinə xəbər çatmadan onun adı və soyadı göstərilməklə məlumat yayılır. Bu da qəti surətdə yolverilməzdir. May ayında sosial şəbəkədə guya atəşkəsin pozulması və 4 şəhid verməyimizlə bağlı məlumat yayılmışdı. Araşdırma apardıq və məlumatda göstərilən 3 nəfərin, ümumiyyətlə, orduda xidmət etmədiyini müəyyən etdik. Digər 1 nəfərin isə ad, soyadı məlumatda göstərilənlə üst-üstə düşsə də, o şəxs başqa istiqamətdəki hərbi hissədə xidmət edirdi. Zirehli texnikanın planlı surətdə yerdəyişməsi və ya döyüş aviasiyamızın uçuşları həyata keçirilir. Amma texnikanın sayı, hərəkət istiqaməti və aviasiyanın foto və videosu bəzi elektron informasiya vasitələrində yayılır. Yenə də jurnalistlərin məlumatı əldə etmək üçün istinad etdikləri mənbə nazirlik deyil, yerli kənd sakinləri və anonim qaynaqlardır".

**Müdafiə Nazirliyinin sözçüsü Ermənistan mənbələrində yer alan dezinformasiyaların Azərbaycan KİV-lərinə yol açması probleminə də toxunub:** "Ermənistan mediası ordumuz haqqında dezinformasiya yayır. Təəssüf ki, bəzi media vasitələri bu məlumatları olduğu kimi, heç bir dəqiqləşdirmə aparmadan, tərcümə edərək ölkə ictimaiyyətinə çatdırır. Bundan əlavə, peşəkarlıqdan və hərb işindən uzaq olan, ancaq özünü hərbi ekspert adlandıran bəzi şəxslərin ordumuz, cəbhədəki vəziyyət və itkilər haqqında səsləndirdikləri qeyri-dəqiq məlumatlar da az qala həqiqət kimi qələmə verilir. Əksər hallarda isə Ermənistan mediasının bizə qarşı apardığı informasiya müharibəsində istifadə etdiyi xəbərlər bu ekspertlərin fikirləri ilə üst-üstə düşür".

**V.Dərgahlı son günlərdə cəbhədə vəziyyətin gərginləşdiyi zaman informasiya məkanında xaotik, pərakəndə bir situasiyanın yaranmasının şahidi olduqlarını, qeyri-dəqiq, həqiqətdən uzaq, yalan, təhrif olunmuş, ictimaiyyəti çaşdıran, narahat edən, olduqca zərərli məlumatlar yayıldığını və bu informasiyanın qısa bir müddətdə media məkanını "işğal" etdiyini də xüsusi vurğulayıb:** "Həmin günlərdə kütləvi informasiya vasitələrinin nümayəndələri sözün əsl mənasında səfərbər oldular. Onlar cəbhənin müxtəlif istiqamətlərinə göndərildi. Bu tədbirlər nəticəsində cəbhədəki real vəziyyət, Silahlı Qüvvələr haqqında obyektiv informasiya vaxtında ictimaiyyətə çatdırıldı. Fürsətdən istifadə edib media nümayəndələrinə bir daha minnətdarlığımı bildirirəm. Son dövrdə kütləvi informasiya vasitələrində Silahlı Qüvvələrin təbliğinə daha çox diqqət verilir. Şəhidlərimizin əsgəri ənənələrə uyğun olaraq son mənzilə yola salınması, vida mərasimlərində dövlət qurumları və ictimaiyyət nümayəndələri, millət vəkillərinin iştirakı, milli qəhrəmanların və keçmiş döyüşçülərin anma mərasimlərinin keçirilməsi, döyüşlərdə fərqlənən hərbçilərə dövlət təltiflərinin təqdim edilməsi Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunu, düşmən üzərində qələbə əzmini daha da artırır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY







# Devrilmiş liderlərin param-parça olmuş ailələri...

## Qəddafi, bin Əli, Səddam Hüseyn və Mübarəkin övladlarının acınacaqlı taleyi...

**"Sabitlikdir". Bu sözü pəncərəsindən bayıra baxaraq sonuncu dəfə gündəliyinə yazan Fransa kralı XIV Lüdovik bilmirdi ki, ertəsi gün Bastiliya inqilabı baş verəcək. Və inqilablar ölkəsini "dəmir əllər"lə idarə edənlərin faciəvi sonluğu ilə yanaşı çox zaman onların övladlarının da bədbəxtliyinin başlanğıcı olur. Tarixi təcrübə sübut edir ki, tiranların, zalım hökmdarların, avtoritar və totalitar idarəçiliyə üstünlük verən rəhbərlərin səhvlərinin əzabını övladları çəkir.**

Onların nəinki karyerası, gələcək planları alt-üst olur, hətta devrilmiş atalarından sonra yaşamaq məşəqqətə çevrilir, cəmiyyət diktatorun övladlarını təcrid edir, dövlət aparatı əməllərini araşdırıb cəzalandırır.

Lakin yaxın müasir tarixdə daha acınacaqlı hadisələr baş verdi. Ərəb dünyasında hökmranlıq edənlərin övladları da özləri kimi sağ qalmadılar. Onlar Qərbin maliyyələşdirdiyi "üsyançılar"ın əlində qətlə yetirildilər.

Amma bu zülmə görə xalq onları müdafiə etmədi, atalarına görə övladlarının öldürülməsinə qarşı çıxmadı. Çünki bu hakimiyyətlərin elədiyi qabağına çıxırdı. Necə ki, Bastiliya inqilabı zamanı kütlələr kralın baş məsləhətçisi Fullonun və kürəkəninin başını payaya keçirib küçələrdə sürüyürdülər. Bəs bugünkü tariximizdə devrilmiş və öldürülmüş liderlərin övladlarının aqibəti necə oldu?

Elə Liviyanın əfsanəvi lideri Müəmmar Qəddafidən başlayaq. Onun arvadı Səfiyə Qəddafi hazırda Oman Respublikasında yaşayır. Artıq qızı Aişə də Əlcəzairdən Omana köçməli olub. Çünki Əlcəzairdə yaşadığı evdə həm maddi sıxıntıları olub, həm mənzildə tez-tez yanğın törədirdi, üstəlik, dövlət mühafizəçilərinə qarşı qanunsuz hərəkətlər edib.

Nəhayət, ölkə prezidentinin portretini cırmaqla bütün səbir kasasını daşırıb və Əlcəzairdən qovulub. İndi Aişə Qəddafi ailəsi, bacısı Hannibal və ögey qardaşı Məhəmmədlə anası Safiyənin yanına - Omana sığınıb. Liviyanın sabiq liderinin üç oğlu isə ölkədəki müharibə zamanı öldürülüb.

Bunlar - Mütəssim, Seyfülərəb və Hamis adlı övladlarıdır. Onlar NATO bombardmanları nəticəsində həlak olublar. Digər oğlu Seyfulislam paytaxt Tripoli yaxınlığında həbsxanadadır və mühakiməsi davam edir.

Səid adlı oğlu isə bugünlərdə Niger dövləti tərəfindən rəsmi Tripoliyə ekstradisiya olunub. Qəddafinin Hana adlı bir qızının isə 1986-cı ildə Amerika qırıcıları tərəfindən vurularaq öldürüldüyü söylənir. Lakin başqa mənbələr Hananın sağ olduğuna da iddia edirlər.

Beləliklə, 42 il dövlətin rəhbəri olmuş şəxsin xanimanı dağıdılıb, ailəsindən isə yarısı mühacirətdə, yarısı zindanda, yarısı da məzarlıqdadır.

Ondan əvvəl 2003-cü ildə Amerikanın İraqı işğalı nəticəsində Səddam Hüseyn edam olundu. Onun övladlarından bu gün qızı Raqad Səddam bibisi və həyat yoldaşı ilə Qətərin paytaxtı Dohada yaşayır. R.Səddam bugünlərdə İŞİD-ə dəstək verməsi ilə də gündəmə gəldi. Onun İraqda atasının qisasını almaq istədiyi açıqlanıb. İraqın sabiq liderinin qızı pullarını İŞİD-ə bağışlayıb.

Səddamın oğlanları - Uday və Kusay isə Amerika əsgərləri ilə qarşıdurmalarda öldürülüblər. Misirin həbsdə olan diktatoru Hüsnü Mübarəkin oğlanları hazırda Ala və Cəmal məhbus həyatı yaşayırlar. Onlar son çıxışlarında bəraət istəyiblər.

Tunisin devrilmiş lideri bin Əlinin övladları isə heç zaman gündəmdə olmayıb. Sabiq prezident həyat yoldaş Leyla Trablisi ilə birlikdə hazırda Səudiyyə Ərəbistanında yaşayır. Bu kiçik xronologiya əslində bir nüansı ortaya çıxardı - illərlə təhlükəsiz, arxayın yaşayan, əmrlər verən liderlər günün birində gözünü açır ki, "sabitlik" və "inkişaf" dedikləri blef imiş. Dövləti idarə edənlər xalqın sevgisini qazanmayanda sonu teştə qan qusmaqla bitir...

❑ E.SALAMOĞLU

# Allahşükür Paşazadəyə qarşı şok ittiham

**Musavat.com-un elektron poçtuna sensasion bir material daxil olub. Əvvəllər də verdiyi məlumatların səhihliyi ilə seçilən mənbə qeyd edir ki, Qafqaz Müsəlmanları İdarəsində gizli kameralar aşkarlanıb. Heç demə, şeyx həzrətləri illərdən bəri öz işçilərini kamera ilə izləyirmiş.**



# Şeyx işçilərini gizli kamera ilə izləyib

## İddiaya görə çəkilişlərdə axundların pul-para söhbətləri və digər biabırçı videoyazılar var; şeyxin sifarişi ilə gizli kameraları yerləşdirən şəxsin hazırda İsveçrədə mühacirətdə olduğu deyilir

Məlumatı ötürən mənbə bunu "Elşad Abdullayevdən sonra ikinci böyük gizli çəkiliş skandalı" adlandırır.

Bildirilir ki, bu, Azərbaycan tarixində ən böyük telequlaq skandalıdır. QMİ sədri Paşazadə QMİ-də axundların otaqlarında, Bakı İslam Universitetinin rektoru və müəllimlərin kabinetlərində, müavini Hacı Salmanın otağında və Həccə sənəd toplama idarəsində gizli kameralar yerləşdirtdirib və öz işçilərini gizli şəkildə izləyib.

Qeyd olunur ki, bu əməlin üstü bir aydır ki, açılıb. Bununla belə, əməlin faş olunmasının təsadüfdən, yoxsa başqa səbəbdən təşkil edilməsi bilinmir.

Hazırda bu üzdən QMİ-də vəziyyətin olduqca pis olduğu deyilir və hamı öz arasında bu hərəkəti mənfi qiymətləndirir, müzakirə açır. Xüsusilə zaman-zaman Paşazadənin əleyhinə danışanlar narahat və qeyzlidir.

QMİ sədrinin müavini Mir Əzizin bunu bildikdən sonra Paşazadə ilə mübahisə etməsi və qəzəbindən infarkt keçirməsinin də gizli izlənmə ilə əlaqəli olduğu deyilir.

Materialda o da bildirilir ki, şeyxin sifarişi ilə gizli kameraları yerləşdirən şəxs hazırda İsveçrədə mühacirətdədir. Şeyx təlaşa düşüb ki, görəsən, həmin adam gizli çəkilişləri özü üçün bir bazada toplayıbmı. Şeyx bu barədə təhlükəsizlik mütəxəssisləri ilə də görüşüb. Onlar şeyxə deyiblər ki, bu sistem WI-FI ilə bağlı olduğu üçün sistemi quran şəxs tərəfindən başqa yerdə bazada toplanması mümkündür. QMİ içərisindəki mənbə deyir ki, əgər həmin gizli çəkilişlər başqa əllərə keçsə, bu, şeyxin sonu olacaq. Çünki orda axundların yersiz söhbətləri, söyüşləri, pul-para söhbətləri, axund təyinatlarında rüşvət söhbətləri və sair biabırçı videoyazılar var.

❑ Musavat.com

# Şeyxin ehsan qadağasına qarşı dirənişinin ilginc təfərrüatları

## QMİ sədri hökumətin rəsmi qərarı ilə barışmır və "VİP çadır" biznesini itirmək istəmir; əməkdaşımız qadağada sonrakı durumu araşdırıb, qiymətlər ölü yiyəsini "dirildir"...

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə yas mərasimlərində ehsan qadağasına qarşı direniş göstərir. Şeyx öz biznesini saxlamaq naminə rəsmi qərarla barışmır və bu qarşıdurmada Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə arasında gərginlik yaşanmaqdadır.**








Məlumata görə, Paşazadə istəmir ki, ehsan məclislərindəki təmtəraqlı süfrələr, ifratçılıq birdəfəlik yığışdırılsın. Çünki bu qərar onun "Əjdər bəy" məscidinin yaxınlığındakı biznesinə son qoya bilər. Bu ərazidə yaratdığı "çadır bazarı" ilə o, böyük gəlirlər əldə edir. Bu səbəbdən hələ də ibadət evinin yanında şıdırğı çadır biznesi davam edir.

Ötən gün hökumətin rəsmi qadağasının bu bazara necə təsir etdiyini öyrənmək üçün araşdırma apardıq. Məlum oldu ki, şeyx bu qərara müqavimət göstərmək sayəsində biznesini saxlayıb. Belə ki, "Təzə bazar"ın yuxarısından başlayaraq "Göy məscid"ə qədər yol qırağında "Vip salon" yazılmış çadır maşınları düzlənib. "KamAZ" markalı bu maşınlar vasitəsilə çadır, texniki avadanlıq, qab-qacaq və s. zəruri əşyalar yas məclisinə daşınır.

Bir qədər irəlidə isə qara rəngli cənazə maşınları sırayla saxlanılıb. Ucu-bucağı görünməyən maşın karvanları az qala yolun bir hissəsini mühasirəyə alıb. Yan-yörədə isə ofislər yerləşir və məclis sahibi burada danışıqlar aparır.

Danışıqlardan asılı olaraq qiymətlərdə müəyyən endirimlər edilir. Cənazə maşınları məsafədən asılı olaraq daşınır. Şəhərdaxilində maşınları 80-120 manat arası razılaşırlar. Paytaxtdan regionlara isə kilometrə 1 manatdan hesablanır. Çadır qiymətləri də belədir. 100 nəfərlik çadırın quraşdırılması, qab-qacaq, ofisiant, çayçı, salat düzəldən və qabyuyan - ümumilikdə 500 manatdır. Yas sahibi süfrə açdırmaq istəyirsə, burada çeşidli təkliflər var.

Ofislərdən birinə yaxınlaşıb siyahını əldə edirik. Menyüdə elə nemətlər var, sanki toy məclisidir. Çadır biznesini işlədən sahibkar deyir ki, qiymətlər dəyişkəndir və müştərinin seçimindən asılıdır. O, menyüdə seçim etməkdə azaddır. Siyahıya baxıb istənilən neməti əlavə və ya xaric etmək olar. Bu da hesablananda fərqli rəqəmlər ortaya çıxır. Sahibkarın sözlərinə görə, 100 nəfərlik mərasim zalında 45-50 nəfər yeməyə qalırsa, hardasa 1000 manatdan yuxarı xərci var.

Sahibkar yas mərasimlərində ehsan verilərkən israfçılığa qarşı tətbiq olunan qadağadan xəbərsizdir. Onun dediyinə görə, bu qadağa işləməyəcək: **"Kimə deyə bilərsən ki, öz doğma adamının yasında bunu ver, bunu vermə. Fərdi məsələdir, qardaş. Heç kəsin işinə qarışmaq olmaz. Şəxsi seçimdir. Adam var qənd və çay verir. Eləsi də var naz-nemətlərin hamısını süfrəyə düzür".** Jurnalist olduğumuzu bilməyən sahibkar qeyd edir ki, onlara heç bir xəbərdarlıq olunmayıb. Həmsöhbətimiz inanmır ki, yaxın vaxtda qərar təsir etsin.

Onu da deyək ki, çadırlar Almaniya və Çindən gətirilir. Şəhərin bir neçə yerində VİP çadır xidməti var. Bu xidmətə qışda qızdırıcı, yayda kondisioner əlavə edilir. Çadıra döşəmə vurulur, yağışlı havada içəri heç bir nəmişlik keçmir. Sahibkarlar işdən narazılıq etmirlər. Onlar hər ay müştəri olduğunu söyləyirlər. Təkcə yas mərasimləri deyil, adi vaxtda ehsan süfrələri açdıranlar olur. Bir nəzir-niyyəti qəbul edilən adamlar müraciət edirlər ki, ehsan versinlər. Həmçinin Ramazan və Məhərrəm aylarında tələbat artır.

Yada salaq ki, hökumət uzun illər Azərbaycanda ictimai bəlaya çevrilən israfçı mərasimlərdən qurtulmaq üçün məcburi qaydalar tətbiq etməyə başlayıb. Artıq ölkə üzrə yerli icra orqanlarına yas məclislərinin sadə şəkildə, yemək süfrələri olmadan təşkil olunması ilə bağlı göstəriş verilib. Bununla bağlı ərazilər üzrə din xadimləri, yerli icra qurumlarına tapşırıqlar verilib. Hətta məlum olub ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov şəhərdə təmtəraqlı yas mərasimlərinin keçirilməsinə qadağa qoyub. Tapşırığa əsasən, MİS əməkdaşları ərazilərindəki xeyir-şər evlərini nəzarətə götürüb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da Azərbaycanda yas məclislərinin keçirilməsi ilə bağlı tənzimləmələrə toxunub. Komitə sədri bildirib ki, Azərbaycanda yas mərasimləri həddini aşmamalı, israfçılığa yol verilməməlidir. QMİ-nin mətbuat xidmətinin rəhbəri Rəhimə Dadaşova isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, QMİ ehsan məclisləri ilə bağlı göstəriş vermək səlahiyyətində deyil.

❑ E.SALAMOĞLU

Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 220 (5929) 3 sentyabr 2014

# Hökumət şadlıq evləri ilə bağlı hərəkətə keçdi

## Restoranlar toy sahibləri ilə müqavilə imzalamağa məcbur ediləcək; **Vahid Əhmədov:** "Birinci növbədə vergi sistemini tənzimləmək lazımdır"



**"Yeni Müsavat" qəzetinin ötən sayında manşetdən "Şadlıq evləri bağlanır" sərlövhəli yazı dərc edilib. Məqalədə bildirilir ki, "toy oliqarxları"na böyük zərbə hazırlanır, dövlət yas mərasimlərinin tənzimlənməsindən sonra toy biznes sektorundakı xaotik vəziyyəti də qaydaya salmağı nəzərdə tutur. Həmçinin bizə daxil olan məlumatda o da qeyd edilir ki, bunun üçün xüsusi qanun layihəsi hazırlanır.**

Burada məsələnin ən sensasional cəhəti isə budur ki, ölkədə göbələk kimi boy verən şadlıq sarayları şəbəkəsi tam nəzarətə götürüləcək və bu sarayların bir çoxunun təyinatı məcburən dəyişdiriləcək. İndiki şadlıq saraylarının əksəriyyəti ticarət-əyləncə və idman-əyləncə komplekslərinə çevriləcək. Onlara itirdikləri gəlirləri bu sahədə kompensasiya etmək imkanları yaradılacaq.

Dünən ölkə mediasında yayılan xəbərlərdən aydın olur ki, hökumət artıq prosesə start verib.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi restoran sahibi ilə sifarişçi arasında müqavilə imzalamağı təklif edir. Məqsəd isə mövcud problemin həllinə nail olmaqdır.

**Komitənin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı hafta.az-a açıqlamasında bildirib ki, komitə olaraq bu təklif gələcəkdə qanun kimi təkmilləşdiriləcək:** "Şadlıq evləri ilə bağlı Azərbaycanda standart mövcuddur. Standartda şadlıq evlərinin təsnifatı, interyeri, onun ətrafındakı infrastrukturu və digər məsələlərin tənzimlənməsi qeyd olunub. Əsas tənzimləmə predmetinə qida məhsullarının keyfiyyəti, köhnə yeməklərin yeni kimi təqdim olunması daxildir. Restoran sahibi ilə istifadəçi arasında müqavilə imzalansa, bu məsələlər həllini tapa bilər. Düzdür, elə sifarişçi ola bilər ki, övladının toyunda bolluğun olmasını istəyir, eləsi də var ki, menyuda seçilmiş yeməklər tələb edir. Hər iki halda müqavilə imzalanmalıdır".

**Deputat, Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov isə düşünür ki, bunu qanunla tənzimləmək mümkün deyil:** "Birinci növbədə vergi sistemini tənzimləmək lazımdır. Orada olan proseslər izlənilsin. Bu mövzunun Milli Məclisdə müzakirə edilməsinin də tərəfdarı deyiləm. Yas mərasimlərinin qanuniləşdirilməsinin tərəfdarıyam. Birinin imkanı var, digərinin yoxdur. Bunu qanuna salmaq düzgündür. Amma restoranlar özəl obyektlərdir. Buranın da müəyyən xərcləri var. Sadəcə, vergi sistemi təkmilləşdirilsin. Vergilər Nazirliyinin əməkdaşları monitorinq aparsın. Bunun inzibati qaydada tənzimlənməsi çətin məsələdir".

Onu da bildirək ki, ötən ay Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən 3 şadlıq evində kulinariya məhsullarının uyğunluq sertifikatlarının, xammal tədarük edilən firmalarla müvafiq müqavilələrin, yeməklərin hazırlanma prosesini, saxlanma şəraitini və müddətini müəyyən edən texnoloji təlimat və resepturaların mövcud olmadığı aşkar edilib. Bundan başqa, müəssisədə məhsulların saxlanılması zamanı temperatur rejiminə və mal qonşuluğuna əməl olunmadığı, burada çalışan personalın gigiyenik və sanitar normalara riayət etmədiyi, istehsal edilən məhsulların dövri olaraq sınaqlarının aparılmadığı, sınaqların aparılması üçün hər hansı akkreditasiya olunmuş laboratoriya ilə müqavilənin olmadığı da aşkar edilib.

❑ **M.MAHRIZLI**

# Bakıda qız qaçırmaq üstə iki qardaş həbs edilib

## **Xocalı qaçqını Narxanım Məmmədova:** "Qız oğluma deyib ki, guya məni zorla qaçırırsan, şou düzəldək"

**Xocalı faciəsində 2 oğlunu və həyat yoldaşını itirmiş Narxanım Məmmədova redaksiyamıza gələrək şikayətinin olduğunu bildirdi.**

"Ailəmizin üstündən ağrı-acı səngimir"-deyən, N.Məmmədova ağır aylar yaşadığını söylədi.

Hazırda ev dustaqlığında olan oğlu Əhməd Məmmədovla bağlı cinayət işinin birtərəfli aparılmasından şikayətlənən ana hadisənin təfsilatını danışdı:

"Mənim öz qohumum, yəni əmim nəvəsi ilə oğlum uzun illər sevgili olub. İkisi də ayrı-ayrı adamlarla evlənib sonra boşanıblar. Ay bala, indi də bu sevgi uşağımın başını cəncələ salıb. Qızın anası bunların bir yerdə olmağına qarşıdır. Ona görə də qız oğluma deyib ki, sən məni qaçırt. Elə et ki, guya zorla qaçırdırsan. Mən də sonra anama deyim ki, day məni zorla qaçırtdı. Nəsə, oğluma özünü istədib deyə uşağım da hər dediyini edirmiş. Oğlum da bu deyən kimi edib. Kiçik qardaşı Ruslanı, dostlarını da götürüb, gedib qızı qaçırtmağa. Bu hadisə qızın iş yerinin qabağında, Nəsimi rayonu ərazisində olub. Qız özü 1 saylı Şəhər Kliniki Xəstəxanasında (Semaşko) işləyir, həkimdir. Maşına minəndə qız qışqır-bağır salıb. Oğlum deyib, daha niyə qışqırırsan, sən dediyin kimi şou elədik ki, guya qaçırdırıq. Görüb yox, qız bunları cırmaqlayır, qışqırır. Maşını saxlayıb, bunu düşürdüb. Ondan sonra oğlumu Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tutdu. 1 ay Nəsimi polisində oğlum türmədə qaldı. Yanvarın 15-ində bu hadisə olmuşdu. Bunun üstündən 2 ay keçəndən sonra proses təzədən qızışdı. Yenə hamısını tutdular".



**"Müharibədə iki oğlumu şəhid vermişəm, indi də iki oğlumu ömürlük türməyə salmaq istəyirlər"**

**N.Məmmədova deyir ki, imkansızlıq ucbatından yaxşı vəkil tuta bilməyiblər:**

"Prezidentin canı sağ olsun, bircə o verən pensiya ilə dolanırıq. O da olmasa batarıq. Sözüm ondadır ki, bizi qəbul etsinlər. Balamın işinə düz baxılsın. Adam oğurluğu adı ilə balamı 10 ilədək türməyə salacaqlar. Onun yanında gedən kiçik oğlumu da, dostlarını da həbs edəcəklər. Mən nə edim indi? Qız da ki, anasının qorxusundan şikayətini götürmür. Halbuki ortada bunların telefon danışıqları, smsləri var. Məhkəmədə heç birinə baxılmadı. Pulsuz-parasız adamlarıq. Güc-bəla ilə bir vəkil tutduq. Onu da qorxudurlar. Dövlət özü təyin edən vəkillər də müdafiə etmir. Qalmışıq ortalarda".

**Hadisəyə səbəbkar olan qadının qohumlarının yüksək vəzifələrdə işlədiklərini deyən N.Məmmədova onlardan bir neçəsinin adını da çəkdi:**

"Qızın atası Aqil Vəliyev polis rəisi işləyib. Bir neçə il əvvəl ölüb. Qardaşı Füzuli Vəliyev Biləsuvarda hazırda prokurordur. Əmisi Ədalət Vəliyev Qaradağ rayonunda rəis müavinidir. Mən də kasıb, qaçqın, köçkün adam. Bir zənglə bu işi istədikləri kimi idarə edirlər. Xahiş edirəm, mənə kömək edin. İki balamı da belə itirməyim".

Yazıda adları çəkilən şəxslərin, qurumların mövqeyini dinləməyə və qəzetdə çap etməyə hazırıq.

❑ **Fəridə ABDIYEVA**



# Dustaqların hansı hüquqları var?

## **Penitensiar Xidmət:** "Son bir ildə 1000 nəfər məhkum işlə təmin edilib..."

**Hüquqi dövlətlərdə qanun pozucularına qarşı cəza eynidir - azadlıqdan məhrumetmə. Məhkumların saxlanıldığı cəzaçəkmə müəssisələrindəki şərait və cəza çəkənlərə qarşı münasibət isə müxtəlifdir. Azərbaycan həbsxanaları üçün xarakterik olan hallardan biri də məhkumların işsizliyi ilə bağlıdır. Dustaqlar türmədə hər hansı bir işlə məşğul olmaq və dil öyrənmək istəyirlərsə, bu, qanunlara görə mümkündür.**

Əvvəllər həbsxana daxilində məhbuslar üçün iş yerləri, tədris kursları fəaliyyət göstərirdi. Hazırda isə daxilində iş yeri və ya hansısa məşğuliyyət dərnəyi olan həbsxanalar demək olar ki, yoxdur. İşsizlik isə dustaqlar üçün böyük problemdir. Araşdırmalar göstərir ki, məhkumların əksəriyyətinin hüquqları ilə bağlı yetərincə bilgiləri yoxdur. Bu səbəbdən çox vaxt qanunla onlara verilən hüquqları tələb edə bilmirlər. Halbuki Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsinə görə, cəzaların icrası və çəkilməsi zamanı məhkumların qanunvericiliklə nəzərdə tutulan hüquq və azadlıqları təmin olunmalıdır.

Məhkumların hüquq və azadlıqları yalnız qanunvericiliklə müəyyən olunan qaydada məhdudlaşdırıla bilər. Hər bir məhkum cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək, ictimai faydalı əməklə, bədən tərbiyəsi və idmanla məşğul olmaq, istirahət etmək, pensiya və ya sosial müavinət almaq hüququna malikdir. Həmçinin onlar hüquq və azadlıqlarının müdafiəsi üzrə qanunvericiliklə müəyyən edilən qaydada təklif, ərizə və şikayətlə dövlət dilində və ya başqa dildə müraciət etmək, zəruri hallarda isə bu məqsədlər üçün cəzanı icra edən müəssisə və ya orqan tərəfindən təqdim edilən tərcüməçi xidmətindən istifadə etmək, cəzanın icrası və çəkilməsi ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək, dini ayinlərin icra edilməsində iştirak etmək, hüquqi və psixoloji yardım almaq hüququna malikdir.

**Bəs hazırda Azərbaycan türmələrində məhkumlar üçün hansısa məşğuliyyət dərnəkləri, iş yerləri varmı? Bunu öyrənmək üçün Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinə məktub ünvanladıq. Aldığımız cavab-məktubda son bir il ərzində 1000 nəfər məhkumun işlə təmin edildiyi bildirilir:** "Azadlıqdan məhrum edilmiş şəxslərin hüquqları Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsində və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əmri ilə təsdiq edilmiş Cəzaçəkmə Müəssisələrinin Daxili İntizam Qaydalarında öz əksini tapıb. Məhkumların ictimai faydalı əməyə cəlb olunmaları ilə bağlı həyata keçirilən tədbirlər sahəsində Ədliyyə Nazirliyinin Penitensiar xidməti tərəfindən müəyyən irəliləyişlərə nail olunub, əvvəlki illə müqayisədə son bir il ərzində daha 1000 məhkum işlə təmin edilib. Bununla belə, daha geniş məhkum kütləsinin əməyə cəlb olunmasının zəruriliyi nəzərə alınaraq yeni iş yerlərinin təşkili istiqamətində tədbirlər görülür. Bu məqsədlə aidiyyəti beynəlxalq təşkilatlar, dövlət və özəl qurumlar, habelə vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq edilir. Bu sahədə həyata keçirilən son tədbirlər Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən "Ədliyyə sahəsində islahatlara dəstək Proqramı" üzrə 16 cəzaçəkmə və 4 məntəqə tipli cəzaçəkmə müəssisəsində əlavə iş yerlərinin təşkili olunmasıdır. Azərbaycan Respublikasının ədliyyə naziri birinci dərəcəli dövlət ədliyyə müşaviri cənab Fikrət Məmmədovun xüsusi nəzarəti altında həyata keçirilmiş tədbirlər nəticəsində bir neçə cəzaçəkmə müəssisəsində yeni istehsal sahələri yaradılıb, digərlərində isə köhnə avadanlıqlar müasirləşdirilib, fərdi əmək sahələri yeni dəzgah və alətlərlə təmin olunub. Cəza çəkənlərin mövcud imkanlar hesabına haqqı ödənilən əməyə cəlb olunmaları istiqamətində tədbirlər davam etdirilir. Ədliyyə Nazirliyi Penitensiar Xidməti tərəfindən ayrı-ayrı müəssisələrində Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyi ilə birgə cəza çəkənlər üçün dil və kompüter kursları təşkil olunub. Kursları bitirən məhkumlar müvafiq sertifikatlar alır və cəza çəkdikdən sonra bu biliklərdən istifadə edirlər".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 220 (5929) 3 sentyabr 2014

# Azərbaycanlı merin qətlinə görə 4 nəfər həbs edildi



**Poltava vilayətinin Kremençuk şəhərinin meri Oleq Babayevin qətlində şübhəli bilinən 4 nəfər həbs edilib. Virtualaz.org saytı Ukrayna nəşrlərinə istinadən bildirir ki, bu məlumatı Ukrayna Daxili İşlər Nazirliyinin mətbuat xidməti yayıb.**

Ukrayna daxili işlər nazirinin müavini, DİN Baş İstintaq İdarəsinin rəisi Vitali Sakalın sözlərinə görə, aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində qətldə şübhəli bilinən 4 nəfər yaxalanıb. Onların ən gənci 22 yaşındadır.

Yada salaq ki, əslən azərbaycanlı olan Oleq Babayev iyulun 26-da səhər naməlum şəxslər tərəfindən qətlə yetirilib.

1965-ci ilin oktyabrında Kursk şəhərində anadan olan O.Babayev "Vorskla" futbol klubunun sahibi idi. O, 2010-cu ildən Kremençuk şəhərinin meri vəzifəsində işləyirdi.



## Şəhidlər Xiyabanında müşahidə kameraları quraşdırılıb

**Azərbaycan Daxili İşlər Nazirliyi (DİN) Bakıdakı Şəhidlər Xiyabanında müşahidə kameralarının quraşdırılması haqqında açıqlama yayıb. DİN mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov APA-ya bildirib ki, bu addım xoşagəlməz halların baş verməməsi, eləcə də qeyd olunan əraziyə mütəmadi nəzarətin həyata keçirilməsi məqsədilə atılıb.**

Onun sözlərinə görə, avqustun 21-dən 22-nə keçən gecə paytaxtın Şəhidlər Xiyabanında qəbirlər üzərində təhqiredici hərəkətlərin törədilməsi faktı ilə bağlı cinayət işi başlanıb və təqsirkarın müəyyən edilərək cəzalandırılması istiqamətində tədbirlər davam etdirilir.

Qeyd edək ki, göstərilən tarixdə naməlum şəxslər İlham və Fərizə Allahverdiyevlərin qəbirləri üzərində təhqiredici hərəkətlərə yol veriblər. Faktla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 245-ci maddəsi ilə cinayət işi başlanıb. Cinayət işi üzrə istintaqın aparılması Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq İdarəsinə tapşırılıb. Hadisəni törədən şəxs və ya şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (*enurez*)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



## Avtobus sürücüsü bıçaqlandı

**Abşeron rayonunda avtobus sürücüsü ilə sərnişin arasında yaranan mübahisə bıçaqlanma ilə nəticələnib. Abşeron Rayon Polis Şöbəsindən verilən məlumata görə, Novxanı qəsəbə sakini 32 yaşlı Mehdi Yusifov artıq polis əməkdaşları tərəfindən saxlanılıb.**

O, istintaqa ifadəsində bildirib ki, hadisə Elçinin idarə etdiyi sərnişin avtobusunda konduktor işləyən Anara görə baş verib. Belə ki, Mehdi Yusifovun Anarla zarafatlaşması sürücü Elçini əsəbiləşdirib:

"Anar mənim yerlimdir. Həmin avtobusda konduktor işləyir. Onunla zarafat edəndə sürücü mənə irad bildirdi ki, o, dildən qusurludur, zarafat eləmə. Mən də dedim ki, elə salmaq mənasında zarafat eləmirəm. Anar mənim yerlimdir və biz tanışıq. Necə zarafat edirik, özümüz bilərik".

Onlar bu şəkildə mübahisə etdikdən sonra Elçin Mehdi Yusifova bir neçə yumruq vurub. Qarşı tərəf də üzərində olan cib bıçağı ilə Elçini vurub.

Yaralı xəstəxanaya yerləşdirilib, hadisəni törədən şəxs barəsində isə cinayət işi başlanıb.







## Bakıda icra başçısı məşhur şadlıq sarayını sökdürür

**Nizami Rayon İcra Hakimiyyəti Bakının məşhur şadlıq saraylarından olan "Planet"in sökülməsi ilə bağlı tapşırıq verib. Azvision.az-ın əldə etdiyi məlumata görə, icra hakimiyyəti obyekt rəhbərliyinə xəbərdarlıq edərək şadlıq sarayının gəlin maşınının zala daxil olması üçün inşa edilən tikilisini sökməsini tapşırıb.**

İcra Hakimiyyəti söküntü üçün oktyabr ayına vaxt qoyub.

"Oktyabr ayından həmin yer söküləcək. İcra başçısı icazə vermir. Həmin yer plana düşüb",- deyə şadlıq sarayından xəbəri təsdiqləyiblər.

Qeyd edək ki, paytaxt Bakıda yerləşən restoranlar arasında "Planet" gəlin maşınının zala daxil olması özəlliyi ilə məşhurdur.

## Məhəmmədi sakinini şortik geydiyinə görə bıçaqladılar

**Abşeron rayonu, Məhəmmədi kənd sakini Natiq Məmmədov bıçaqlanıb. APA TV-nin məlumatına görə, onun bıçaqlanmasına səbəb qısa tumanda məhəlləyə çıxaraq it gəzdirməsidir.**

Teymur Ağabəyov törətdiyi əməli qonşusunun söyüş söyməsi ilə əsaslandırır: "Məhəllədə yanında it dayanmışdı, dedim, get gir içəri, başladı söyüş söyməyə".

Natiq Məmmədovun iti gecələr hürdüyünə görə qonşuluqda yaşayan Teymur Ağabəyov ona dəfələrlə irad tutub, amma qarşı tərəf buna əhəmiyyət verməyib. Ötən gün yenidən iti həyətə çıxaran Natiqlə Teymur rastlaşıblar. İti məhəlləyə çıxararaq hürdürməsi və qısa tuman geyinməsi Teymur Ağabəyovun xoşuna gəlməyib və qonşusunu təhqir etməyə başlayıb. Tərəflər arasında mübahisə başlayıb və Ağabəyov bıçaq götürmək üçün evə girib.

"Anası və arvadı həyətdə idi. Məni görüb içəri girdi, çağırdım, çıxan kimi vurdum".

Qonşusunu vurandan sonra qaçıb gizlənən Teymura ailə üzvləri zəng vurub evə polis əməkdaşlarının onlara gəldiyini bildiriblər. Bundan sonra Teymur Ağabəyov könüllü olaraq polisə təslim olub. Qeyd edək ki, hadisə baş verən gün saxlanılan şəxs içkili vəziyyətdə olub.

## Məhkəmə hakimi qardaşı arvadını döydü

**İmişli rayon sakini Həmidxan Abbasov həyat yoldaşı Xətayə Abbasovanın Lerik Rayon Məhkəməsinin hakimi Təyyar Abbaslı tərəfindən döyüldüyünü iddia edir. Avropa.info-ya videomüraciət edən Həmidxan Abbasov ögey qardaşı, Lerik Rayon Məhkəməsinin hakimi Təyyar Abbaslının onlara 1996-cı ildən dövlət tərəfindən ayrılmış 4 hektar ,62 sot torpaqlarını mənimsədiyini bildirib.**

Həmidxan Abbasovun dediyinə görə, torpağın onlara məxsus olması barədə məhkəmə qərarlarına baxmayaraq, məhkəmə hakimi olan qardaşı qanunları saya saymayaraq mülkiyyətini əlindən alıb. İmişli sakininin bildirdiyinə görə, torpaqlarını tələb etdiklərinə görə qardaşı , Lerik Rayon Məhkəməsinin hakimi Təyyar Abbaslı onun həyat yoldaşı Xətayə Abbasovanı icra nümayəndəsinin gözü qarşısında döyüb.

## Azərbaycan sərhədində "Ebola" gərginliyi...

**Azərbaycan sərhədində "Ebola" virusunun ölkə ərazisində yayılmasının qarşısının alınması ilə bağlı vəziyyət nəzarət altındadır. "Trend"in məlumatına görə, bu barədə jurnalistlərə Dövlət Gömrük Komitəsinin (DGK) sədri Aydın Əliyev bildirib.**

Onun sözlərinə görə, Səhiyyə Nazirliyindən alınan təlimata uyğun olaraq, vəziyyəti nəzarət altında saxlamaq üçün sərhəddə DGK-nın həkim əməkdaşları çalışırlar.

A.Əliyev qeyd edib ki, Gömrük Komitəsinin əməkdaşları öz işlərini yerinə yetirirlər və təlimata uyğun olaraq, sərhədi keçən əcnəbi vətəndaşlar barədə Səhiyyə Nazirliyinə məlumat verirlər.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, "Ebola" virusunun qurbanlarının ümumi sayı 1420 nəfərdir. Onların arasında xəstəliklə mübarizəyə kömək edən 120 tibb işçisi də var. Bu xəstəliyə ilk yoluxma halı fevral ayında Qərbi Afrikada qeydə alınıb.

ÜST-in qeyd etdiyi kimi, virusa yoluxanların sayı 2600 nəfəri ötür. Xəstəliyə yoluxma halları Liberiyada, Syerra-Leonedə, Qvineyada, Nigeriyada və Konqo Demokratik Respublikasında müəyyən edilib.

# Bahalaşmanın qarşısını necə almaq olar?

## “İlk növbədə süni qiymət artımlarına nəzarət edilməlidir”

**Ölkədə kənd təsərrüfatı məhsullarının bahalaşması davam edir. Bir çox ərzaq məhsullarının qiymətində 2 dəfədən artıq artım müşahidə olunub. Paytaxtın əsas bazarlarında apardığımız müşahidələrdən də bəlli olur ki, qiymət artımı istehlak olunan məhsulun həcmini azaltmaqla yanaşı, alıcılıq qabiliyyətinə də mənfi təsir edib.**

Bahalaşmaya səbəb kimi, Rusiyanın Qərb ölkələrinə sanksiya tətbiq etdikdən sonra kənd təsərrüfatı məhsullarını daha çox Azərbaycandan idxal etməsi göstərilir. Belə ki, tarixi fürsət əldə edən yerli fermerlər məhsullarını daha tez və baha satmaq üçün kütləvi şəkildə Rusiya bazarına üz tutur. Nəticədə yerli bazarda məhsul azalır və qiymətlər bir çox hallarda süni şəkildə qaldırılır. Satıcılar son zamanlar bazara gətirilən məhsulların keyfiyyətinin də aşağı olduğundan narazıdırlar. Bu durum fermerləri nə qədər məmnun etsə də, satıcıların və alıcıların narazılığına səbəb olub.

**Bu vəziyyətdən çıxış yolu nədir? Musavat.com bu sualı ekspertlərlə birgə araşdırıb.**

**Millət vəkili Vahid Əhmədov deyir ki, son günlər mətbuatın gündəmində olan bu mövzu onu da narahat edir:** “Şəxsən ”Keşlə bazarı"na gedib qiymətlərlə maraqlandım, satıcılarla söhbət etdim. Həqiqətən ciddi bahalaşma müşahidə olunur. Bunun qarşısı alınmalıdır. Çalışmaq lazımdır ki, Azərbaycanın daxili bazarında qiymətlərin sabitliyini qoruyub saxlayaq. Əvvəlcə vətəndaşlarımızın daha ucuz qiymətə keyfiyyətli məhsul almasını təmin etməliyik. Daha sonra xaricə ixrac etmək haqqında düşünməliyik".

**Millət vəkilinin sözlərinə görə, bu prosesdə fermerlərin maraqlarını da başa düşmək lazımdır:** “Uzun müddət idi ki, Azərbaycan-Rusiya sərhədində problemlər var idi və Rusiya Azərbaycandan kənd təsərrüfatı məhsullarını qəbul etmirdi. İndi belə bir imkan yaranıb və fermerləri də başa düşmək olar ki, onlar daha çox qazanmaq istəyirlər. Ancaq daxili bazarı da qorumaq lazımdır, sıçrayışla qiymət artımına yol verməmək olmaz. Bunun üçün istər Kənd Təsərrüfatı Nazirliyi tərəfindən, istərsə də İqtisadi İnkişaf Nazirliyi tərəfindən bazarlarda monitorinqlər aparılmalıdır. Çalışmaq lazımdır ki, həddindən artıq qiymət artımının qarşısı alınsın. Hökumət tərəfindən istər ixrac prosesinə, istərsə də qiymət artımına müəyyən nəzarət mexanizmi işə salınmalıdır. Əsas məqsəd daxili bazarı qorumaq, yerli bazarları tam təmin etdikdən sonra artıq qalan məhsulu xaricə çıxarmaqdır”.

**Millət vəkili bildirdi ki, Rusiyaya ixrac olunan məhsula limit qoymaq mümkün deyil:** “Çünki bu ayrı-ayrı fermerlər tərəfindən gətirilir. Ən optimal variant gömrük rüsumunu və ya vergini qaldırmaqla müəyyən baryerlər yaratmaq və bu yolla ixracı nəzarətdə saxlamaqdır”.



**İqtisadçı ekspert Vüqar Bayramov deyir ki, qiymət artımının qarşısını almaq üçün ölkəyə daha ucuz xarici məhsulların idxalına şərait yaradılmalı, bu sahədəki maneələr aradan qaldırılmalıdır:** “Fermerlərin Rusiya bazarına can atması təbiidir. Çünki burada məhsullarını daha baha satmaq imkanı var. Ancaq məsələnin bir tərəfi də odur ki, kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılması yerli bazarda məhsulların azalmasına gətirib çıxarır. Bu gün müşahidə olunun qiymət artımına meyvə-tərəvəzin Rusiyaya daşınması ilə paralel olaraq, mövsümün bitməsi ilə əlaqədar bəzi məhsulların istehsalının azalması da təsir edir. Daxili bazarda qiymət artımının qarşısının alınması üçün bir sıra tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Biz təklif edirik ki, hökumət daxili bazarda yerli məhsulların qiymətinin artması fonunda idxalın liberallaşdırılmasını həyata keçirsin. İdxal prosesində mövcud olan baryerləri aradan qaldırmaqla imkan verəcək ki, Azərbaycana daha ucuz meyvə-tərəvəz gətirilsin. Məsələn, Türkiyə və İrandan daha ucuz kənd təsərrüfatı məhsulları gətirilərsə, həm alıcıya seçim imkanı veriləcək. Alıcı nisbətən bahalı olan yerli məhsulu və ya daha ucuz olan xarici məhsul almaqda özü qərar verəcək. Bu, bazarda nisbətən ucuz məhsulların təklif edilməsi baxımından əhəmiyyətlidir. Bu da yerli fermerləri məcbur edəcək ki, bazara çıxarılan məhsulların qiymətini nisbətən azaltsın ki, rəqabətə tab gətirə bilsinlər”.

**Ekspert onu da vurğuladı ki, hər şeydən öncə, mövcud durumdan istifadə edib qiymətləri süni şəkildə artıranlara nəzarəti gücləndirmək lazımdır:** “Bizim apardığımız monitorinqlər göstərir ki, bazarda qiymət artımları yalnız Rusiyaya ixrac edilən məhsullarda baş vermir. Süni şəkildə artırılan qiymət artımları da müşahidə olunur. Bəzi iş adamları bahalaşma faktından psixoloji olaraq istifadə edirlər. Bu səbəbdən İqtisadiyyat və Sənaye Nazirliyi süni qiymət artımına qarşı mübarizəni gücləndirməlidir. İstehlak bazarında müşahidə edilən bütün süni qiymət artımlarının qarşısı alınmalıdır. Əgər məhsula çəkilən xərc, maya dəyəri dəyişməyibsə, həmin məhsulun qiyməti artırsa, bu, süni qiymət artımı sayılır. Azərbaycan qanunvericiliyi bu cür qiymət artımına icazə vermir.

Digər tərəfdən, yarmarkaların sayının və dövriliyinin artırılmasına ehtiyac var. İxracın artdığı bir dövrdə bu yolla qiymətləri nəzarətdə saxlamaq mümkündür".

**V.Bayramov problemin daha uzunmüddətli həlli yolu kimi fermerlərə subsidiyaların verilməsi mexanizminin təkmilləşdirilməsini və daha çox istehsalın stimullaşdırılmasını göstərir:** “Fermerlərin öz məhsullarını xarici bazara çıxarmağa can atması bir növ hökumətə mesajdır. Bu mesaj ondan ibarətdir ki, hökumət kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə bağlı kompleks işlər görməlidir. Bu işlər sırasında fermerlərə verilən subsidiyaların mexanizminin dəyişdirilməsi çox vacibdir. Bu gün Azərbaycanda kənd təsərrüfatına subsidiyalar hər hektara görə verilir. Bu isə fermerlərdə daha çox məhsul istehsal etmək üçün stimul yaratmır. ABŞ da daxil olmaqla, inkişaf etmiş ölkələrdə fermerlər istehsal etdiyi məhsulun həcminə görə subsidiya alırlar, ancaq Azərbaycanda strateji məhsullara görə hər hektara 80 manat, strateji olmayan məhsula görə hər hektara 40 manat subsidiya ayrılır. Bu mexanizm fermeri daha çox istehsala sövq etmir. Çünki bir hektardan 1 ton məhsul götürən fermerlə bir neçə kiloqram məhsul yığan fermer arasında fərq qoyulmur. Bu mexanizmin dəyişdirilməsinə və beynəlxalq təcrübədə olduğu kimi tənzimlənməsinə ehtiyac var”.

**Ekspert bildirdi ki, indiki halda qısamüddətli dövrdə qiymətlərin tənzimlənməsinə xidmət edən ilk üç tədbirin həyata keçirilməsinə, strateji olaraq isə subsidiyaların verilməsi mexanizminin dəyişdirilməsinə və məbləğinin artırılmasına ehtiyac var.**

❑ Nərgiz LİFTİYEVA

# Sanksiyalar rus banklarını çökdürdü

**Rusiya bankları 2014-cü ilin birinci yarısına olan maliyyə hesabatlarını təqdim ediblər. Ölkənin nəhəng maliyyə qurumlarının son 3-4 ay ərzində üzləşdikləri itkilər 1-5 milyard rubl təşkil edir.**

Axar.az xəbər verir ki, ekspertlər Avropa Birliyinin bu həftə tətbiq edəcəyi sanksiyaların Rusiya iqtisadiyyatına ciddi zərbə vuracağını bildiriblər.

“Russkiy standart” bankının itkisi 4.7 milyard təşkil edib. Bu da əvvəlki illərə olan göstəricilərdən 7 dəfə - 690 milyon rubl çoxdur. Bu bank istehlak kreditləri bazarının liderlərindən biridir. Ümumilikdə isə onun kredit verməsinə qadağa qoyulub.




Bundan başqa “XKF-bank”ın xalis itkiləri 4 milyard, “Vostoçnıy ekspress”in 3.44 milyard, “OTP-bank”ın isə 1 milyard rubl təşkil edir.

Qeyd edək ki, Qərbin tətbiq etdiyi sanksiyalardan sonra artıq Rusiyada iqtisadi artım tempi dayanıb, ÜDM isə sıfır dərəcəsindədir.



## Türk üzümü Medvedyevi əsəbiləşdirdi

**Rusiyanın baş naziri Dmitri Medvedyev Krasnoyarsk şəhərində bazara baş çəkib. Azvision.az Rusiya mətbuatına istinadən xəbər verir ki, bazarda meyvə və tərəvəzlərin qiymətini və keyfiyyətini öyrənən baş nazir Türkiyədən gətirilən üzümü görəndə əsəbiləşib.**

O, səlahiyyətli şəxslərə müraciət edərək meyvənin Türkiyədən gətirilməsi səbəbini soruşub. Baş nazir bildirib ki, meyvənin Türkiyədən gətirilməsi pis deyil, amma Rusiyanın öz malı olsa daha yaxşı olar.

Baş nazirin sözçüsü Natalya Timakova bildirib ki, Medvedyev bazarları araşdırmaq üçün ölkədəki bütün market və bazarlara tez-tez baş çəkəcək.

YENİ MÜSAVAT

Son səhifə

N 220 (5929) 3 sentyabr 2014

# Şaftalı haqqında bilmədiklərimiz



Şaftalı A, B və C vitaminləri, kalium, kalsium, natrium, maqnezium, dəmir və fosfor mineralları ilə zəngin olan meyvədir. Sizə şaftalının faydalarını təqdim edirik: Orqanizmin xəstəliklərə qarşı müqavimətini artırır. Bağırsaqları yumşaldır. Həzmi asanlaşdırır. Sidik qovucudur və qəbizliyi aradan qaldırır. Babasil xəstəliyi zamanı faydalıdır. Qanı təmizləyir. Qızdırmanı salır. Sinirləri sakitləşdirir və yuxusuzluqla mübarizə aparır. Xərçəngə qarşı qoruyucudur. İnfarkt riskini azaldır. Böyrəklərin funksiyasını tənzimləyir və böyrək daşlarını əridir. Ağız qoxusunu aradan qaldırır. Dərini nəmləndirir və canlandırır.



## Evdə dərs keçmək qadağan edildi

Kanadanın Quebec ştatına bağlı Saugenay şəhərindəki bir məktəbdə şagirdlərə evdə dərs keçmək qadağan edilib. Saugenayın Jonquiere Xalq Məktəbinin idarə heyəti başlatdıqları projenin nəticəsini görmək üçün birinci sinifdən altıncı sinfə qədər 339 şagirdə bir il ərzində ev dərsləri verilməsini qadağan edib. Mütəxəssislər şagirdlərin məktəbdə daha yaxşı dərs dinləməsi və dərsləri daha yaxşı öyrənməsi üçün bu yola əl atdıqlarını deyiblər. 2008-ci ildə də bu məsələ haqqında araşdırma aparılıb, lakin nəticəsi bəlli olmadan dayandırılmışdı.



## 1 pişik, 2 həyat

Yeni Zelandiyada bir siam pişiyinin 9 il ərzində sahiblərindən xəbərsiz cüt həyat yaşadığı məlum olub. Alice Aleksandra 2000-ci ildə Minq adlı pişiyi satın alıb. 2005-ci ildən etibarən ailə pişiyin evə gec-gec gəldiyini hiss edib. Minq qonşuda özünə yeni dostlar tapdığı üçün ailəsinin yanına gec-gec gəlməyə başlayıb. Aleksandr evə gec gələn pişiyi axtarmağa başlayıb. Pişik itdikdən 4 il sonra boğazında Clera yazılmış zəncirlə evə qayıtdığı zaman hər kəs nə olduğunu anlayıb. İki ailənin Minqin kimdə qalacağı haqda razılaşacağı gözlənilir.

# Uzun yaşamağın sirrini açıqladı

Dünyanın ən yaşlı adamlarından olan 127 yaşlı meksikalı Leandra Bacerra Lumberaras uzun yaşamağın sirrini açıqlayıb. 31 avqust 1887-ci ildə dünyaya gələn Leandra bir neçə gün əvvəl 127 yaşını qeyd edib. Meksikalı qadın Birinci Dünya müharibəsi zamanı 27, İngiltərə kraliçası II Elizabet taxta çıxarkən 66, ilk insan Aya ayaq basdığı zaman 82 yaşında olub. Dünyanın ən yaşlı qadınının sözlərinə görə, çox yaşamağın sirri saatlarla yatmaq, yaxşı yemək və əsla evlənməməkdir. Leandra öz həyatı haqqında hər şeyi yaxşı xatırlayır və yaddaşının qətiyyən zəifləmədiyini deyir. Onun nəvəsi nənəsinin Meksika tarixi ilə bağlı hər şeyi dəqiq xatırladığını, dərslərində onlara xeyli kömək etdiyini deyir. 127 yaşlı qadın evlənməsə də 5 uşaq dünyaya gətirib. 20 nəvəsi olan qadının 55 nəticəsi var. Yaşlı qadının ən böyük övladı 90 yaşında həyatını itirib. 40 il əvvəl doğum haqqında sənədini itirən qadın "Ginnesin rekordlar kitabı"na girə bilmir. Lumbrerasdan 12 yaş kiçik olan yaponiyalı Misao Okava rekordlar kitabına adını yazdıra bilib.






## WhatsApp-da möhtəşəm yenilik

Dünyanın ən məşhur mesajlaşma proqramı olan WhatsApp istifadəçiləri üçün yenilik hazırlayır. Smartfonlarına və planşet kompüterlərinə bu proqramı yükləmiş şəxslər pulsuz telefon zəngləri funksiyasından yararlana biləcəklər. WhatsApp-ın baş direktoru Yan Kum Mobile World Congressdəki çıxışında pulsuz telefon zəngləri funksiyasının proqrama 2014-cü ilin ikinci rübündə əlavə olunacağını bildirmişdi. FirstPost bildirir ki, yeniliyin tətbiqinə çox az qalıb. WhatsApp-da "Hang up", "Incoming call" və "Outgoing call" funksiyaları olacaq. İnnovasiya ilk əvvəl Android və iOS əməliyyat sistemləri ilə çalışan smartfonlarda, sonra isə Nokia və BlackBerry telefonlarında tətbiq olunacaq.




**QOÇ** - Qarşılıqlı münasibətlərdə yaranan anlaşılmazlıqları bir kənara qoyub aktiv fəaliyyətə başlayın. Hər hansı mübahisə və konflikt yalnız zərərinizə ola bilər. Uzaq yola çıxmayın.

**BUĞA** - İstəyib-istəməmənizdən asılı olmayaraq bu təqvimdə işgüzarlığınız artacaq. Bu baxımdan iş prinsipinizdə bir çox yeniliklər nəzərə çarpacaq. Cəhd göstərsəniz, pul da qazanacaqsınız.

**ƏKİZLƏR** - Sentyabra böyük ümidlər bəslədiyiniz bəllidir. Amma bu ümidlərə qovuşmaq üçün cəhdlər də etməlisiniz. Özünüzə aludə olmaqdansa müştərək işlərə daha çox yer ayırın. Ruhdan düşməyin.

**XƏRÇƏNG** - Təxminən saat 12-yə qədər gərgin situasiyalarla rastlaşacağınız gözlənilir. Əlləxüsus da həmkarlarınızla təmkinli davranmalısınız. Nahardan sonra isə xoş ovqat qazanacaqsınız.

**ŞİR** - Təzə ayın təəssüratlarını, payız əhval-ruhiyyəsini bir kənara qoyun. Çünki qarşınızda duran çoxsaylı vəzifələrin öhdəsindən gəlməyiniz lazımdır. Bu gün oturaq işlərdən uzaq olmalısınız.

**QIZ** - Hələ ki sentyabrın gəlişi sizə xoş ovqat bəxş etməkdədir. Başqa cür də ola bilməz. Çünki indi "hakimiyyətdə" sizin bürcdür. Günorta yeni işlə bağlı sövdələşmə aparmaq olar.

**TƏRƏZİ** - Fəaliyyətinizdə müəyyən passivlik müşahidə olunacaq. Odur ki, gücünüz çatmayan işlərdən yapışmamalısınız. Nahardan sonra yaxın ünvanda yaşayan yaxınlarınıza baş çəkin.

**ƏQRƏB** - Məsləhətsiz hansısa addımı atmayın. Unutmayın ki, indi həyatınızın ən keşməkeşli dövrünü yaşamaqdasınız. Özünüzü itirməyin. Günün ikinci yarısında maraqlı hadisələr olacaq.

**OXATAN** - Hər şey çıxardığınız qərarlardan asılıdır. Bədxislətli şəxslərin atmacalarına vaxt itirməkdənsə, mötəbər adamlarla işbirliyi yaradın. Unutmayın ki, karyeranız yüksəliş ərəfəsindədir.

**OĞLAQ** - Daxili narahatçılığınız tədricən səngiməyə başlayacaq. Üzləşdiyiniz proseslər sevincinizə səbəb olacaq. Ulduzlar təvəqqe edir ki, ağıllı adamların məsləhətlərini qulaqardına vurmayasınız.

**SUTÖKƏN** - İş və fəaliyyətlə bağlı olduqca düşərli gündür. Odur ki, əsas diqqətinizi bu istiqamətə yönəltməlisiniz. Münasibətlərdə isə ehtiyatlı olun. Böyük dəyişikliklər astanasındasınız.

**BALIQLAR** - Adətən sentyabrın bu təqvimi sizin üçün həmişə böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən də qarşınıza çıxan hər bir şansdan yararlanmalısınız. Sirlərinizi hər kəsə açmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Toy havaya uçdu



İngiltərənin Cumbria şəhərində bir toy faciə ilə nəticələnib. Bəy John Simpson və gəlin Nikola Rotvel toydakı 70 qonaqla birlikdə şəkil çəkdirərkən kiçik bir yerdə toplanmış salyutlar partlayıb. Yanğınsöndürənlər qonaqları evin bağçasından kənara çıxarıblar. Salyutların toplandığı yerin yaxınlığında bir kişi və bir qadının cəsədləri tapılıb. Toyun təşkilatçıları ölənlərin toyda çalışanlar olduğunu inkar ediblər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565